QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 053 (7221)

3 aprel 2025-ci il.
Qiyməti 60 qəpik

"Azərbaycan - Çin strateji tərəfdaşlığı: Qlobal Cənubda konsolidasiya və əməkdaşlığın təşviqi"

4

Azərbaycan -Almaniya:
əməkdaşlıq üçün yeni mərhələ

2

Prezident İlham Əliyev: "Mən tam əminəm ki, bu səfər bizim əlaqələrimizə yeni müsbət təkan verəcək"

Türkiyə olaylarında
Qərb izi

Müxalifət Qərbin köməyinə ümid bəsləməməlidir - "Sabah"

12

Sarıcalı əzəli sakinlərini qarşıladı

11

Avropa liderlərinin UKRAYNADAN İSTİFADƏ NİYYƏTLƏRİ

14

Uşaq kitablarına maraq niyə azalıb?

16

"Daşınmaz əmlak qiymətlərinin artımı kirayə bazarına da təsir edir"

13

KƏLBƏCƏR: dəmir yumruğun və dəmir iradənin nəticəsi

8

Azərbaycan -Almaniya:
əməkdaşlıq üçün yeni mərhələ

Prezident İlham Əliyev: "Mən tam əminəm ki, bu səfər bizim əlaqələrimizə yeni müsbət təkan verəcək"

Beynəlxalq birliyin ən fəal üzvlərindən olan Azərbaycan regionda və dünyada uğurlu siyasət yürüdərək, böyük dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı daha da möhkəmləndirir. Azərbaycan beynəlxalq aləmdə sülhsevər, demokratik prinsiplərin inkişafına xüsusi önəm verən, irimiqyaslı infrastruktur layihələrin reallaşdırılmasında zəngin təcrübəsi olan bir ölkə kimi tanınır. Azərbaycan-Almaniya münasibətləri də yüksələn xətt üzrə inkişaf edir. Siyasi, təhlükəsizlik və digər sahəsində də əməkdaşlıq sahəsində uğurlar əldə olunub. Almaniyanın Azərbaycanla ikitərəfli əməkdaşlığa olan marağı yalnız ölkəmizin strateji-coğrafi mövqeyə malik olması və zəngin karbohidrogen ehtiyatları ilə deyil, həm də möhkəm siyasi sabitliyə, beynəlxalq birliyə öz töhfəsini verməsi ilə də bağlıdır. Dövlət başçılarının qarşılıqlı səfərləri əməkdaşlığın uğurla davam etməsinə söykənir.

Aprelin 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-ValterŞtaynmayer ilə geniş tərkibdə keçirilən görüşdə ikitərəfli gündəliyə daxil olan geniş, əhatəli məsələləri, eləcə də beynəlxalq məsələləri müzakirə ediblər. Almaniya Prezidentini Azərbaycanda qəbul etməkdən məmnunluğunu bildirən dövlətimizin başçısı qeyd edib ki, bizim mütəmadi təmaslarımız olub: ”Biz keçən il Berlində görüşmüşdük və mən dəvətimi qəbul etdiyinizə görə Sizə minnətdaram. Əminəm ki, səfər çox faydalı, məhsuldar olacaq və bizim ikitərəfli əlaqələrimizə yeni təkan verəcəkdir”.

Frank-Valter Ştaynmayer: **“Orta Dəhliz Almaniya iqtisadiyyatı üçün də maraqlı perspektivdir”**

İlham Əliyev: **“Bu gün Azərbaycanın və Ermənistanın sülhün əldə edilməsində mövqeləri bir-birinə kifayət qədər yaxınlaşıb”**

Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerin Azərbaycana rəsmi səfəri əlaqələrin davamlığına əsaslanır. ”Mən tam əminəm ki, bu səfər bizim əlaqələrimizə yeni müsbət təkan verəcək”. Bu sözləri Prezident İlham Əliyev Almaniya Prezidenti Frank-Valter Ştaynmayer ilə mətbuata bəyanatında səsləndirib:”İkitərəfli münasibətlər tarixində bu, Almaniya Prezidentinin Azərbaycana birinci rəsmi səfəridir və əminəm ki, səfərin yekunları ölkələrimizi bir-birinə daha yaxın edəcəkdir”.

Azərbaycanla Almaniya arasında müxtəlif sahələrdə olan əməkdaşlıq, xüsusilə də, Prezident İlham Əliyevin Almaniyaya işgüzar səfərləri iki ölkə arasında münasibətlərin daha da gücləndirilməsi və əməkdaşlığın genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan-Almaniya etibarlı tərəfdaşlığının hərtərəfli və yüksələn xətlə inkişafının əyani göstəricisidir.

”2030-CU İLƏ QƏDƏR BƏRPAOLUNAN ENERJİ NÖVLƏRİNİN İSTEHSAL GÜCÜNÜ 6 GİQAVATA ÇATDIRMAQ FİKRİNDƏYİK”

Məlumdur ki, Azərbaycan müasir dünyada Avropaya yaşıl enerjini ixrac etmək istiqamətində ardıcıl işlər görür. 2030-cu ilə qədər Azərbaycan enerji sektorunda külək, Günəş və su elektrik enerjisinin payını 30 faiz artıracaqdır. 2027-ci ilin sonuna qədər 9 Günəş və külək elektrik stansiyası istismara veriləcək. Onların enerji potensialı 2 qiqavata bərabərdir. 2030-cu ilə qədər isə əlavə 10 külək və Günəş elektrik stansiyası tikiləcək ki, onun da potensialı 5 qiqavata qədərdir. Dünyada baş verən geosiyasi hadisələr fonunda enerji təhlükəsizliyi məsələləri diqqətdən kənarda qalmır. Avropanın enerji sahəsində asılılığı azaltmaq, alternativ mənbələr və etibarlı tərəfdaşlar axtarışında Azərbaycana xüsusi önəm verməsində bir sıra amillər özünü göstərir. Müasir dövrdə Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rola malikdir. Almaniya və Azərbaycan arasında enerji sahəsində də əməkdaşlıq yüksələn xətlə inkişaf edir. Yaşıl enerji və hidrogen enerjisi sahələrində əməkdaşlıq üçün regionda böyük potensial mövcuddur və alman şirkətləri də Azbaycanla əməkdaşlıq etməyə maraq göstərirlər. ”Biz xarici investorların sərmayəsi hesabına 2030-cu ilə qədər bərpaolunan enerji növlərinin istehsal gücünü 6 giqavata çatdırmaq fikrindəyik və bu, tam realdır. Bunun bir hissəsi Avropaya ixrac ediləcək”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Vurğulamaq yerinə düşər ki, Azərbaycandakı alman şirkətləri bərpaolunan enerjinin inkişafı layihələrinə də maraq göstərirlər. Almaniyanın ”Berlin Wind” şirkəti tərəfindən Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrinin ərazisindəki 50 MVt-lıq ”Yeni Yaşma” Külək Elektrik Parkında yenidənqurma işləri aparılıb və 2018-ci il oktyabrın 11-də parkın açılışı olub.

Qeyd edək ki, dövlət başçılarının görüşlərində Orta Dəhliz layihəsi və bu layihədə Azərbaycanın rolu, ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib, yaşıl enerji ilə bağlı əməkdaşlığa toxunulub. COP29-un Azərbaycanda yüksək səviyyədə təşkil edildiyi və həmin tədbir zamanı iqlim gündəliyi ilə bağlı mühüm nəticələrin əldə olunduğu vurğulanıb.

Ardı Səh. 3

Azərbaycan -Almaniya:
əməkdaşlıq üçün yeni mərhələ

Prezident İlham Əliyev: "Mən tam əminəm ki, bu səfər bizim əlaqələrimizə yeni müsbət təkan verəcək"

Əvvəli Səh. 2

”TARİXİ ZƏFƏRİMİZ SÜLH DANIŞIQLARINA YOL AÇMIŞDIR”

Azərbaycan Prezidenti bəyanatla çıxışında regional təhlükəsizlik məsələsinə toxunaraq Azərbaycan ilə Ermənistan arasında gedən sülh danışıqlarını yüksək qiymətləndirdiyimizi diqqətə çatdırıb. Azərbaycanın 2020-ci ildə öz suveren ərazisinin böyük hissəsini işğaldan azad edib və 2023-cü ilin sentyabr ayında isə suverenliyini tam bərpa edib. Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərini əsas tutaraq, BMT Nizamnaməsinin 51-ci maddəsinə söykənərək öz ərazi bütövlüyünü hərbi-siyasi yollarla təmin edib. Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli istiqamətində dövlət başçımız yorulmadan səylər göstərmiş, danışıqlar aparmışdır. ”Azərbaycan 30 il ərzində erməni işğalından əziyyət çəkmişdir. Bizim xalqımız etnik təmizləməyə məruz qalmışdır. Bir milyon azərbaycanlı erməni aqressiyasına görə evsiz-eşiksiz qalmışdır və torpaqlarımızın təxminən 20 faizi işğal altına düşmüşdür. Əfsuslar olsun ki, beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı ciddi addım atmamışlar. Azərbaycan bu münaqişəni və beynəlxalq hüququ özü döyüş meydanında və siyasi müstəvidə həll etmişdir. Məhz bu tarixi Zəfərimiz sülh danışıqlarına yol açmışdır. Hesab edirəm ki, bu gün Azərbaycanın və Ermənistanın sülhün əldə edilməsində mövqeləri bir-birinə kifayət qədər yaxınlaşmışdır”, - deyə Azərbaycan Prezidenti bildirib. Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olması istiqamətində, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində ardıcıl addımlar atmışdı. Münaqişənin həlli üçün

hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanırdı. BMT Təhlükəsizlik Şurası düşmənçilik aktlarının dərhal dayandırılmasını, işğalçı qoşunların Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi. Qətnamələrin heç biri Ermənistan tərəfindən yerinə yetirilmədi. 2020-ci ilin 10 noyabr tarixində Ermənistan məcbur olub kapitulyasiya aktına imza atdı. 44 günlük Vətən müharibəsində Zəfər tariximizi yazaraq erməni işğalında olan torpaqlarını azad edən Azərbaycan yeni dövrünə qədəm qoydu. Azərbaycan yeni reallıqlar yaradaraq işıqlı, daha uğurlu bir yola qədəm qoyub. Prezident İlham Əliyev almaniyalı həmkarı Frank-ValterŞtaynmayeri Azərbaycan-Ermənistan sülh prosesi barədə ətraflı məlumatlandırıb. ”Bu gün söhbət əsnasında mən cənab Prezidenti Azərbaycan-Ermənistan sülh prosesi ilə bağlı kifayət qədər məlumatlandırdım. Bildirdim ki, İkinci Qarabağ müharibəsi başa çatandan sonra məhz Azərbaycan və şəxsən mən sülh danışıqlarının başlanmasının təşəbbüskarı olmuşam. O vaxt nə Ermənistan, nə də ki, o vaxt hələ fəaliyyət göstərən ATƏT-in Minsk qrupu belə bir təklif irəli sürməmişdi. Bu təklifi Azərbaycan tərəfi vermişdir. Bu özlüyündə onu göstərir ki, biz sülh müqaviləsinin bağlanmasında nə qədər maraqlıyıq”, - deyə Azərbaycan Prezidenti vurğulayıb və bildirib ki, 2024-cü ilin yanvarına qədər Ermənistan təkidlə sülh müqaviləsinə salmaq istədiyi dırnaqarası ”Dağlıq Qarabağ respublikası” yoxdur, bu, ancaq Ermənistanın xülyalarında mövcud olub. Azərbaycanın Qarabağ bölgəsi mövcuddur. Tarixi Zəfərimiz sülh danışıqlarına yol açmışdır və hesab edirəm ki, bu gün Azərbaycanın və Ermənistanın sülhün əldə edilməsində mövqeləri bir-birinə kifayət qədər yaxınlaşmışdır”.

”ƏGƏR ERMƏNİSTAN DOĞRUDAN DA SÜLH MÜQAVİLƏSİNİ İMZALAMAQ İSTƏYİRSƏ...”

Azərbaycan Prezidenti Ermənistan ilə sülh müqaviləsinin imzalanması üçün şərtləri açıqlayıb. ”Bu günə qədər sülh müqaviləsinin mətni tam razılaşdırılıb, 17 paraqrafdan ibarətdir. Azərbaycan burada hər hansı bir əlavə şərt irəli sürmür. Bizim şərtlərimiz Ermənistan üçün bəllidir, yenilik deyil. Bu şərtləri biz uzun müddət ərzində irəli sürürük. Ancaq Ermənistandan bu günə qədər hər hansı bir ciddi cavab almamışıq. Nədən ibarətdir bu? Birinci, ATƏT-in Minsk qrupu ləğv edilməlidir”, - deyə Prezident mətbuata bəyanatında söyləyib. Dövlətimizin başçısı əlavə edib: ”İkinci məsələ Ermənistanın konstitusiyası ilə bağlıdır. Ermənistan konstitusiyasında Ermənistan müstəqillik aktına istinad var. O konstitusiyanın tərkib hissəsidir. Orada isə Azərbaycanın hüquqi, tarixi ərazisinin Ermənistanla birləşməsi haqqında müddəa var və bu, bizə qarşı açıq ərazi iddiası sayılır. Ona görə Ermənistan konstitusiyasından bu bəndin çıxarılması bizim legitim tələbimizdir. Bu iki şərt təmin olunandan sonra sülh müqaviləsinin imzalanması üçün heç bir maneə olmayacaq. Necə deyərlər, top Ermənistanın tərəfindədir. Əgər Ermənistan doğrudan da sülh müqaviləsini imzalamaq istəyirsə, Azərbaycanın bu iki legitim şərtini qəbul etməlidir”.

Xatırladaq ki, Aprelin 2-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Almaniya Federativ Respublikasının birinci xanımı Elke Büdenbender ilə görüşü olub. Əminliklə vurğulayaq ki, bu səfər bütün sahələr üzrə əməkdaşlığın daha yüksək səviyyəyə qaldırılmasına əhəmiyyətli təkan verəcək, gələcək inkişaf üçün böyük perspektivlər açacaqdır.

Zümrüd BAYRAMOVA

“Ölkələrimiz arasında münasibətlərin yaxşı inkişaf dinamikası var”

Prezident İlham Əliyev Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin beynəlxalq əlaqələr şöbəsinin müdirini qəbul edib

Prezident İlham Əliyev aprelin 2-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançaonu qəbul edib. Dövlətimizin başçısı Lü Tzyançaonun səfərinin ölkələrimiz arasında dostluq münasibətlərinin gələcəkdə də möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvarlığını bildirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin yaxşı inkişaf dinamikasının olduğunu və bir çox sahələri əhatə etdiyini dedi. Dövlətimizin başçısı vurğuladı ki, ötən il Si Cinpinlə görüşünün nəticələrinə əsasən qəbul edilən ”Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” dostluq, tərəfdaşlıq və əməkdaşlığımızın nümayişi olmaqla, qarşılıqlı fəaliyyətimizin səviyyəsini yüksəldib.

Azərbaycan Prezidenti gələcəkdə də ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf edəcəyinə əminliyini bildirdi, siyasi, iqtisadi, nəqliyyat sahələrində əməkdaşlığın regionda təhlükəsizliyin və çoxtərəfli əməkdaşlığın möhkəmlənməsi işinə xidmət etdiyini vurğuladı.

Lü Tzyançao dövlətimizin başçısı ilə görüşməkdən şərəf hissi duyduğunu deyərək, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını və xoş arzularını Prezident İlham Əliyevə çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş etdi.

Ölkəmizə ilk dəfə gəldiyini deyən qonaq Bakıda şahidi olduğu inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını bildirdi. Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, bərpaolunan enerji, nəqliyyat, Orta Dəhliz və ”Bir kəmər, bir yol” layihəsi çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında münasibətlərin inkişafına dair fikir mübadiləsi aparıldı.

“Azərbaycan - Çin strateji tərəfdaşlığı: Qlobal Cənubda konsolidasiya və əməkdaşlığın təşviqi”

Aprelin 2-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə ”Azərbaycan - Çin strateji tərəfdaşlığı: Qlobal Cənubda konsolidasiya və əməkdaşlığın təşviqi” mövzusunda konfrans keçirilib.

Tədbirdən əvvəl YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Ülviyyə Həmzəyevanın ötən il Çin Xalq Respublikasına (ÇXR) səfər təəssüratlarından ibarət rəsm əsərləri nümayiş olunub.

Konfransda əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycan və Çin Xalq Respublikasının müstəqilliyi və suverenliyi uğrunda canlarını qurban vermiş vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Çin Xalq Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirilib.

Konfransın moderatoru, Milli Məclisin deputatı Pərvin Kərimzadə Azərbaycanla Çin arasında əlaqələrin dinamik inkişaf etdiyini bildirib. Çin Xalq Respublikasının qlobal güc mərkəzlərindən biri olduğunu deyən P.Kərimzadə Azərbaycanın Cənubi Qafqaz regionunun lider dövləti kimi müasir beynəlxalq münasibətlər sistemində mövqelərini möhkəmləndirdiyini diqqətə çatdırıb. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında səmərəli, qarşılıqlı faydalı və çoxşaxəli əlaqələr mövcuddur. P.Kərimzadənin fikrincə, bu konfrans iki ölkə arasında mövcud əlaqələr və perspektiv əməkdaşlığa dair fikir mübadiləsinin aparılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını salamlamaqdan məmnunluğunu ifadə edib, dəvəti qəbul edərək ölkəmizə səfərə gəlmiş Çin Kommunist Partiyasının nümayəndə heyətinə təşəkkürünü bildirib və konfransın işinə uğurlar arzulayıb.

Tahir Budaqov qeyd edib ki, bu gün Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasındakı münasibətlər dostluq, qarşılıqlı faydalı əməkdaşlıq və etibarlı strateji tərəfdaşlığa əsaslanır: ”Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpin iki ölkə arasında əlaqələrin inkişafına böyük önəm verirlər. Dövlət başçılarının iradələri sayəsində müxtəlif sahələri əhatə edən çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi istiqamətində məqsədyönlü fəaliyyət həyata keçirilir. Fəal siyasi dialoq və davamlı diplomatik təmaslar fonunda son olaraq 2024-cü ilin iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində ”Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə”nin qəbulu müstəqil siyasət həyata keçirən iki dövlətin ortaq iradəsini ifadə etməklə gələcəyə yönəlik çox önəmli addım kimi böyük əhəmiyyətə malikdir. Bəyannamədə qeyd edildiyi kimi, tərəflər siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığı genişləndirməyə, beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyəti gücləndirməyə, iki ölkənin ümumi maraqlarını birgə qorumağa, həmçinin regional və qlobal sülh, sabitlik və inkişaf fəaliyyətini irəlilətməyə dair razılıq əldə etmişlər. Bu, Azərbaycan ilə Çinin bir-birini prioritet və etibarlı tərəfdaş hesab edərək strateji hədəflərini ardıcıl olaraq gerçəkləşdirmək əzmini göstərir”.

YAP Sədrinin müavini vurğulayıb ki, dünyada yüksək nüfuza malik olan dövlətlər kimi Azərbaycan ilə Çin beynəlxalq müstəvidə əməkdaşlığı xüsusi diqqət mərkəzində saxlamaqla bir-birinin maraqlarının qorunmasına böyük önəm verirlər. Onun sözlərinə görə, öz ərazi bütövlüyü və suverenliyini tam təmin edərək yeni geostrateji reallıqlar yaradan Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərini əsas götürərək müstəqil dövlətlərin, o cümlədən dost və tərəfdaş Çinin ərazi bütövlüyünə, eləcə də Vahid Çin prinsipinə birmənalı dəstəyini daim ifadə etməkdədir: ”Öz növbəsində, BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri olan Çin Xalq Respublikasının Azərbaycanın haqlı və ədalətli mövqeyini müdafiə etməsi xalqımız tərəfindən yüksək dəyərləndirilir. Çinin ölkəmizin BRICS platformasında təmsilçiliyinə və Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrinin inkişafına dəstək göstərməsi isə daha bir səmimi dostluq və tərəfdaşlıq nümunəsidir”.

Tahir Budaqov bildirib ki, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində Avrasiyanın mühüm tranzit qovşağına çevrilən Azərbaycan Çinin ”Bir kəmər, bir yol” layihəsinə ilk dəstək verən ölkələrdən biri kimi bu layihə və Orta Dəhliz çərçivəsində əməkdaşlığın genişləndirilməsində son dərəcədə maraqlı olduğunu öz əməli fəaliyyəti ilə əyani şəkildə nümayiş etdirməkdədir: ”Heç şübhəsiz, ölkəmizin prinsipial mövqeyi fonunda qarşıdakı dövrdə Zəngəzur dəhlizinin reallaşdırılması tərəfdaş dövlətləri, o cümlədən Azərbaycan ilə Çini yeni çoxtərəfli əməkdaşlıq platformasında bir araya gətirərək Avrasiyada konstruktiv işbirliyinin güclənməsini şərtləndirəcəkdir”.

YAP Mərkəzi Aparatının rəhbəri söyləyib ki, ölkələrimiz arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamədə əksini tapan başlıca məsələlərdən biri də partiyalararası əlaqələrin gücləndirilməsidir: ”Azərbaycan-Çin münasibətlərinin inkişafında iki ölkənin hakim partiyalarının əməkdaşlıq əlaqələrinin müstəsna rolu vardır. Son illərdə hakim partiyalar arasında fəal siyasi dialoq şəraitində intensiv təmaslar diqqəti cəlb edir. Xüsusilə də, qarşılıqlı səfərlər partiyalararası münasibətlərin inkişafına təkan verməkdədir. Nümayəndə heyətlərinin qarşılıqlı səfərləri çərçivəsində aktual məsələlərə dair fikir və təcrübə mübadiləsinin aparılması ikitərəfli əlaqələrin inkişafında mühüm amil kimi xüsusi əhəmiyyətə malikdir. 2024-cü ilin noyabr ayında YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri zamanı Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında memorandumun imzalanması isə qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlığın siyasi və hüquqi əsaslarını möhkəmləndirərək partiyalar arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsini təmin etmişdir. Memorandumdan irəli gələrək əlaqələri yüksək səviyyədə saxlamaq, mütəmadi olaraq nümayəndə heyətlərinin səfərlərini təşkil etmək, ümumi maraq doğuran məsələlər üzrə təmasları gücləndirmək qarşıda duran başlıca vəzifələrdəndir”.

Ardı Səh. 5

“Azərbaycan - Çin strateji tərəfdaşlığı: Qlobal Cənubda konsolidasiya və əməkdaşlığın təşviqi”

Əvvəli Səh. 4

Tahir Budaqovun sözlərinə görə, Azərbaycan-Çin strateji tərəfdaşlığı təkcə iki ölkə arasında münasibətlərin inkişafı və işbirliyinin dərinləşdirilməsi ilə əlamətdar deyil, eyni zamanda, Qlobal Cənubda konsolidasiya və əməkdaşlığın təşviqi baxımından olduqca mühüm əhəmiyyətə malikdir: ”İnkaredilməz həqiqətdir ki, Cənubi Asiya, Afrika, Latın Amerikası və Karib hövzəsi boyunca dünya əhalisinin yarıdan çoxunu özündə ehtiva edən Qlobal Cənub ciddi siyasi və iqtisadi resursları cəmləşdirməklə yeni güc mərkəzinə çevrilmişdir. Qlobal Cənub ölkələri dayanıqlı iqtisadi inkişaf, rəqəmsal transformasiya, texnoloji innovasiyalar və sosial tərəqqi üçün yeni standartlar yaratmaq potensialına malikdir. Bütövlükdə, Qlobal Cənubun yüksəlişi bərabərlik, inklüzivlik və səmərəli əməkdaşlıq prinsiplərinə söykənən ədalətli beynəlxalq münasibətlər sisteminin formalaşması baxımından müstəsna önəm daşıyır. Qlobal problemlərin artdığı şəraitdə milli maraqlara hörmət və ədalət prinsiplərinə əsaslanan yeni əməkdaşlıq modelinin formalaşması üçün Qlobal Cənub ilə Qlobal Şimalın konstruktiv işbirliyi məsələsi aktual çağırış kimi qarşımızda dayanır. İstər Azərbaycan, istərsə də Çin çoxqütblü siyasi nizamın tərəfdarı kimi beynəlxalq təhlükəsizliyə ciddi təhdidlər yaradan hallara qarşı barışmaz mövqe sərgiləyərək müstəqil, qətiyyətli və konstruktiv siyasət həyata keçirməklə qlobal miqyasda dialoq və əməkdaşlığı təşviq edirlər. Yeni reallıqlar fonunda həmrəylik nümayiş etdirərək dünyada bərabərsizlik, təcridetmə və haqsız rəqabət kimi problemlərin əhəmiyyətli dərəcədə həllinə nail olmaqla bəşəriyyətin sağlam və xoşbəxt gələcəyi üçün etibarlı zəmin formalaşdıra bilərik”.

YAP Sədrinin müavini vurğulayıb ki, bu zamana qədər görülən işlər və qazanılan uğurlarla yanaşı, qarşımızda önəmli hədəflər durur: ”Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası hakim siyasi partiyalar kimi dövlət başçılarının dostluq münasibətlərini və Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlığı əsas götürərək birgə fəaliyyəti müvəffəqiyyətlə davam etdirmək və yeni uğurlara imza atmaq əzmindədir. Yeri gəlmişkən, fürsətdən istifadə edərək Yeni Azərbaycan Partiyasının nümayəndə heyətlərinin Çin Xalq Respublikasına səfərləri zamanı göstərilən yüksək qonaqpərvərliyə və cari ayda da ”Şanxay Əməkdaşlıq Təşkilatının Siyasi Partiyalar Forumu”na dəvətə görə Çin Kommunist Partiyasının rəhbərliyinə təşəkkürümü ifadə edirəm. Əminəm ki, bugünkü konfransımız da həm ölkələrimiz, həm də partiyalarımız arasında əməkdaşlığa dair aktual məsələlərin müzakirəsi üçün səmərəli olacaq və faydalı ideya platforması kimi məhsuldar nəticələrlə yadda qalacaqdır”.

Çıxış edən Çin Kommunist Partiyası (ÇKP) Mərkəzi Komitəsinin üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançao Yeni Azərbaycan Partiyasının dəvəti ilə Azərbaycana səfər etməkdən məmnunluğunu ifadə edib. O, xalqlarımızın mədəniyyətinin bir-birinə yaxın olduğunu vurğulayaraq bildirib ki, Çin xalqı Azərbaycan xalqının mədəni irsi ilə tanışdır.

Lü Tzyançao vurğulayıb ki, Çin və Azərbaycan strateji tərəfdaşlardır və qarşılıqlı faydalı əməkdaşlıq edirlər: ”Azərbaycan və Çin xalqları arasında dostluğun qədim tarixi var. Bu tarixi dostluq bizim müasir dövrdəki münasibətlərimizə də böyük təsir göstərir. Ötən il iki dövlətin liderlərinin Çin - Azərbaycan münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə çatdırılmasını elan etməsi də bunun göstəricisidir. Bu, ikitərəfli münasibətlərimizin inkişafının mühüm mərhələsidir və biz qarşılıqlı etimad əsasında bir-birimizi dəstəkləyirik. Hazırda Çin dövlət quruculuğu istiqamətində fəaliyyətini genişləndirməkdədir. Eyni zamanda, biz bilirik ki, Azərbaycan tərəfi də uğurlu inkişaf strategiyası həyata keçirir. Bu inkişaf yolu milli maraqlarımıza əsaslanır və kənar müdaxilələrə qarşı yönəlib. Biz müasirləşməyə yol açaraq qarşılıqlı tərəqqini təmin etməyə çalışırıq. Azərbaycan və Çin arasında iqtisadi əlaqələr bir-birini tamamlayır və davamlı nailiyyətlərə töhfə verir”.

Onun sözlərinə görə, Çin və Azərbaycan arasında elm sahəsində əlaqələr inkişaf etməkdədir: ”Hesab edirəm ki, iki ölkə arasında ”yaşıl enerji” və rəqəmsal iqtisadiyyat sahələrində də əməkdaşlıq daha da genişlənəcək”.

Lü Tzyançao qeyd edib ki, hazırda dünyada böyük dəyişikliklər baş verir: ”Bu ilin əvvəlindən etibarən beynəlxalq vəziyyət ciddi sarsıntılarla üzləşib. Dövlətlər qeyri-sabit və qeyri-müəyyən amillərlə qarşılaşır. Avrasiyada yeni çağırışlar meydana çıxır. Çin və Azərbaycan bu geosiyasi məkanda önəmli ölkələrdir və dövlətlərarası əməkdaşlıq bu qeyri-sabit dövrdə böyük ümidlər yaradır. Xüsusilə, Asiya və Avropanı əhatə edən kommunikasiya sahəsindəki inkişafı qeyd etmək lazımdır. Bu, ölkələrimiz üçün yeni imkanlar və perspektivlər açır. Çin və Azərbaycan birlikdə Şanxay Əməkdaşlıq Təşkilatının ruhunu gücləndirir, dövlətlər arasında qarşılıqlı hörmət və çoxşaxəli əməkdaşlıq prinsiplərini dəstəkləyir. Bu mənada, biz sülhün və təhlükəsizliyin təşviqinə töhfə verməliyik”.

Lü Tzyançao qeyd edib ki, nəqliyyat marşrutlarının təhlükəsizliyinin təmin edilməsi istiqamətində də Çin və Azərbaycan fəal əməkdaşlıq edir, birgə regional və logistik kanallar inkişaf etdirilir. Onun sözlərinə görə, Azərbaycan bu sahədə çox aktiv rol oynayır: ”Çin və Azərbaycan həm səmimi dostlar, həm də önəmli tərəfdaşlardır. Həmçinin ölkələrimiz Qlobal Cənubun mühüm iştirakçılarıdır. Hər iki dövlətin qarşısında yeni vəzifələr dayanır”.

Lü Tzyançao XII Qlobal Bakı Forumunda müxtəlif ölkələrin nümayəndələrinin qlobal çağırışları müzakirə etdiklərini, o cümlədən Qlobal Cənubun dünya nizamında rolunu vurğuladıqlarını xatırladıb. Onun fikrincə, Azərbaycanın Qlobal Cənubla bağlı mühüm rolu nəzərdə tutulan layihələrin reallaşdırılmasına əlavə təkan verəcək.

O, Azərbaycanın keçən il COP29-a uğurla ev sahibliyi etdiyini, Çinin Bakının iqlim sahəsində təşəbbüslərini dəstəklədiyini vurğulayıb. ”Çin və Azərbaycan Qlobal Cənub dövlətləri ilə birgə səylərlə bir-birinə dəstək olaraq gələcək inkişaflarını təmin etməlidirlər. Qlobal Cənub dövlətlərinin üstünlükləri böyükdür. Bu dövlətlər tərəqqiyə böyük önəm verirlər. Eyni zamanda, onlar dünyada terrora və münaqişələrə qarşı çıxış edirlər. Biz dövlətlər arasında bərabərliyin, ədalətin tərəfdarıyıq. Bu prosesə Çin və Azərbaycan çox böyük töhfə verirlər. Çinlə Azərbaycan indiyə qədər olduğu kimi, bundan sonra da bir-birini dəstəkləyəcək”.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini, Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov isə çıxışı zamanı bildirib ki, Azərbaycan-Çin əməkdaşlığı xalqlarımızın mənafelərinə uyğundur. Hər iki ölkənin böyük potensiala malik olduğunu deyən Ə.Əhmədovun fikrincə, perspektivdə ölkələrimiz arasında əlaqələr daha geniş və çoxşaxəli olacaq. YAP Sədrinin müavini qeyd edib ki, bu amil dövlətlərimizə qarşılıqlı fayda verəcək: ”Ölkələrin əməkdaşlığı iqtisadi, siyasi maraqlar, sivilizasiya yaxınlığı kimi amillər üzərində qurulur. Bizim əməkdaşlığımız bu parametrlərə cavab verir. Qlobal Cənub təmsilçisi olaraq xalqlarımızın mədəni yaxınlığı da ölkələrimiz arasında əməkdaşlığın daha etibarlı zəmin üzərində qurulmasını təmin edir”.

Əli Əhmədov deyib ki, bu gün dünya sürətlə dəyişir və son zamanlar müxtəlif regionlarda xaos elementləri də artır: ”Bu da dünya ictimaiyyətini narahat edir. İkinci Dünya müharibəsindən sonra formalaşmış beynəlxalq hüquq normalarının çökməsi və onu güc elementləri ilə əvəz etmək cəhdləri bəşəriyyəti təhdidlərlə üz-üzə qoyur. Belə olan halda, bəşəriyyətin gələcəyi naminə dövlətlərin və xalqların ciddi düşünməsinə ehtiyac yaranır.

Ardı Səh. 6

“Azərbaycan - Çin strateji tərəfdaşlığı: Qlobal Cənubda konsolidasiya və əməkdaşlığın təşviqi”

Əvvəli Səh. 5

Bu düşüncələr fonunda yeni birliklər, platformalar meydana çıxır. Hazırda BRICS və Şanxay Əməkdaşlıq Təşkilatı kimi platformalar təkcə iqtisadi maraqlardan ibarət olmayan birliklərə çevrilmək şanslarına malikdir. Bəşəriyyətin fəlakətdən xilas olmasına, beynəlxalq münasibətlər sisteminin bu günün dəyərləri zəminində yenidən qurulmasına ehtiyac var. Azərbaycanla Çin arasında tərəfdaşlıq, dostluq bütövlükdə dünyanın qarşısında dayanan çağırışlara ən düzgün cavabın tapılması üçün əhəmiyyətli rol oynaya bilər. Çünki bu əməkdaşlıq, dialoq iqtisadi maraqlarla yanaşı, qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq, beynəlxalq hüquqa istinad etmək kimi prinsiplər üzərində qurulub. Ölkələrimizin əməkdaşlığı gələcəkdə bəşəriyyətin üzləşdiyi təhlükələrin aradan qaldırılması üçün daha səmərəli yolların tapılmasına təkan verə bilər”.

Ə.Əhmədovun fikrincə, Çin dünyanın indiki reallıqlarına və gələcək inkişaf perspektivlərinə ciddi şəkildə təsir etmək imkanlarına malikdir. ”Güman edirəm ki, Çin gələcəkdə bu imkanları daxilində dünyanın daha ədalətli prinsiplər əsasında idarə olunmasını qarşısına məqsəd qoyan birliklərin meydana çıxması üçün öz töhfələrini artıracaq”, - deyən YAP Sədrinin müavini Azərbaycanın da regionumuzda bütün proseslərin sülh və əməkdaşlıq prinsipləri əsasında qərarlaşmasına öz töhfəsini verdiyini diqqətə çatdırıb.

Onun sözlərinə görə, Azərbaycan ərazi bütövlüyü və suverenliyini təmin etməklə yanaşı, regionda sülh gündəliyini də təqdim edib: ”Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin ana xəttini sülh gündəliyi təşkil edir. Hesab edirəm ki, bu fakt təkcə Cənubi Qafqazda deyil, daha böyük coğrafiyada sülh gündəliyinin təşviq olunması üçün Azərbaycanın çox ciddi şəkildə fəaliyyət göstərməsindən xəbər verir”.

Ə.Əhmədov qeyd edib ki, xalqları və dövlətləri bir-birinə yaxınlaşdıran əsas amillərdən biri də kommunikasiyalardır: ”Tarixən Şərqlə Qərbi birləşdirən Böyük İpək Yolunun sülhün bərqərar olmasında da mühüm rolu olub. Bu gün də dünyada sülhü bərqərar etmək üçün dövlətlər arasında əməkdaşlığın güclənməsində kommunikasiyaların oynadığı vacib rolu hər kəs anlayır. Bu mənada, Çin lideri tərəfindən irəli sürülmüş ”Bir kəmər, bir yol” layihəsi dünya ictimaiyyətinin sülh ehtiyacının ödənilməsinə töhfə verə bilər. Azərbaycan bu layihəni ilk dəstəkləyən ölkələrdəndir”.

Ə.Əhmədov deyib ki, Qlobal Cənub dünyanın gələcəyinin müəyyən edilməsində əhəmiyyətli rol oynamaq imkanlarına malik faktor kimi özünü təsdiqləyib. ”Vaxtilə sivilizasiya, bəşəriyyətin güc mənbəyi bu coğrafiyada yaranıb. Bu gün də Qlobal Cənub öz potensialını bəşəriyyətin firavan gələcəyi üçün səfərbər etmək imkanlarına sahibdir. Bunun reallaşmasında Çin və onunla əməkdaşlığa böyük önəm verən Azərbaycan mühüm rol oynaya bilər. Bu mənada, Azərbaycan-Çin strateji tərəfdaşlığı xalqlarımızın maraqlarına xidmət etməklə yanaşı, bəşəriyyətin daha xoşbəxt gələcəyinin qurulmasına töhfə verə bilər”, - deyə YAP Sədrinin müavini vurğulayıb.

Çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti (AMEA) İsa Həbibbəyli bildirib ki, Azərbaycan-Çin əməkdaşlığının əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub: ”Ümummilli Lider ölkəmizdə siyasi hakimiyyətə qayıdışından təxminən bir il sonra - 1994-cü ildə Çin Xalq Respublikasına rəsmi səfər etmişdir. Heydər Əliyev bu səfəri ilə həm də inkişafın Çin modelinin əhəmiyyətinə böyük dəyər verdiyini nümayiş etdirmişdir”.

İsa Həbibbəyli qeyd edib ki, Ümummilli Liderin 1994-cü ildə Çin Xalq Respublikasına səfəri zamanı Pekin İctimai Elmlər Akademiyasında böyük tarixi əhəmiyyətə malik çıxışı, əslində, yenicə müstəqillik qazanan Azərbaycan dövlətinin dünyaya tanıdılması demək idi: ”Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri ilə keçirdiyi görüşlər və iki ölkə arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamənin qəbulu dövlətlərarası əməkdaşlığı yeni inkişaf mərhələsinə çatdırmışdır. Hazırda iki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən elm və təhsil sektorlarında mühüm tədbirlər həyata keçirilir. Ölkəmizin yüksək reytinqə malik təhsil ocaqlarında Çin dili üzrə yüksək ixtisaslı mütəxəssislər hazırlanır. Azərbaycan Milli Elmlər Akademiyasının bir sıra institutlarında Azərbaycan-Çin əlaqələrinə həsr olunmuş genişmiqyaslı tədqiqatlar aparılır. Bu istiqamətdə Azərbaycan alimləri Çindəki analoji qurumlarının nümayəndələri ilə birgə ortaq layihələr həyata keçirirlər”.

O vurğulayıb ki, bu faktorlar humanitar sahədə də Azərbaycan-Çin əməkdaşlığının yüksələn xətlə inkişaf etdiyini əyani şəkildə göstərir: ”2017-ci ildən etibarən Azərbaycan Milli Elmlər Akademiyasında Çin Tədqiqatları Mərkəzi fəaliyyət göstərir. Çin Xalq Resublikasının Azərbaycandakı səfirliyi və Konfutsi Mərkəzinin dəstəyi ilə bu Mərkəzdə Çin dili uğurla tədris olunur. Artıq müxtəlif elmi müəssisələrdə çalışan əməkdaşların bir qismi həmin mərkəzdə dil öyrənmələri ilə bağlı sertifikat alıblar. Müxtəlif beynəlxalq seminarların aparılması, universitetlər arasında keçirilən görüşlər Azərbaycan elminin Qlobal Cənuba verdiyi töhfələrdəndir. Şübhəsiz ki, bu istiqamətdə işlər perspektivdə də uğurla davam etdiriləcək”.

İsa Həbibbəyli qeyd edib ki, 2024-cü ilin iyun ayında Çində keçirilən ”Xəzərdən Çin səddinədək” beynəlxalq konfrans birbaşa Qlobal Cənubun prioritetlərini əks etdirən mühüm bir platforma idi: ”Həmin konfransda Çin və Azərbaycanla yanaşı, digər regionlardan olan mütəxəssislərin iştirakı ilə birgə bəyannamənin qəbul edilməsi elm sahəsində yeni üfüqlərin açılmasından xəbər verir. Ötən ilin sentyabr ayında Pekin Xarici Dillər Universitetinin təşkilatçılığı və ev sahibliyi ilə Birinci Çin azərbaycanşünaslıq beynəlxalq elmi konfransının keçirilməsi də bu əlaqələrin möhkəmlənməsinə xidmət edir. Azərbaycan universitetləri Çində Azərbaycan dili üzrə mütəxəssislərin yetişməsi üçün çalışırlar, alimlərimiz orada məruzələrlə çıxışlar edirlər. Bütün bunlar göstərir ki, geosiyasət, diplomatiya, iqtisadiyyat, mədəniyyət və digər sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də Azərbaycan Qlobal Cənubun inkişafında əhəmiyyəti rol oynayan aktorlardan biridir”.

Çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov vurğulayıb ki, Azərbaycan və Çin arasında çoxşaxəli əməkdaşlığın daha da genişləndirilməsi olduqca vacibdir. O qeyd edib ki, müasir dövrdə ekoloji və sosial-humanitar məsələlər qlobal xarakterli problemlər kimi diqqət mərkəzindədir: ”Dünya birliyi inkişafın davamlı və dayanıqlı olması yolu ilə bu problemlərin həll edilməsini ön plana çıxarıb. Hazırda bu prosesin reallaşması istiqamətində müəyyən nailiyyətlər əldə olunub. Lakin qlobal miqyasda 2030-cü ilə qədər nəzərdə tutulmuş bəzi məqsədlərin həyata keçirilməsi bir qədər ləngiyir. Bu faktorlar onu göstərir ki, inkişafın idarə edilməsində yeni yanaşmalar lazımdır. Yeni yanaşmalar dedikdə, dünya öz inkişafında ekoloji sivilizasiya mərhələsinə keçid etməlidir. Qeyd etmək lazımdır ki, bu termin və ümumiyyətlə, sözügedən konsepsiya 1990-cı illərin əvvəllərində Azərbaycanda yaranmış və Ümummilli Lider Heydər Əliyev tərəfindən BMT-nin ”İnsan İnkişafı Hesabatı”nda təqdim olunmuşdur. Çin məhz bu sahədə qlobal lider mövqeyini qoruyub saxlayır. 2007-ci ildə Çin Kommunist Partiyasının XVII Qurultayında ekoloji sivilizasiya konsepsiyası ümummilli konteksdə qeyd edilib. Bu partiyanın 2012-ci ildə keçirilən XVIII Qurultayında isə ekoloji sivilizasiya Çinin Konstitusiyasına daxil edilib. Çin Xalq Respublikasının Sədri Si Cinpin Çin Kommunist Partiyasının 2017-ci ildə keçirilən XIX Qurultayında bu konsepsiyanın nə qədər əhəmiyyətli olduğunu və onun hansı mexanizmlərlə həyata keçirilməsi barədə ətraflı çıxış edib”.

Rektor vurğulayıb ki, 2024-cü ilin noyabr ayında Azərbaycanın paytaxtı Bakı şəhərində COP29 tədbiri çox uğurla həyata keçirilib: ”Bildiyiniz kimi, bəzi dairələr iddia edirdilər ki, bu mötəbər konfransın ölkəmizdə keçirilməsi mümkün deyil. Hələ bu söhbətlər gedən ərəfədə - 2023-cü ildə və daha sonra 2024-cü ildə Dünya İqtisadi Forumu yeni bir hesabat dərc etmişdir. Dünya ölkələrinin enerji keçidinə həsr olunmuş bu hesabatda Azərbaycan 120 ölkə arasında 32-ci yeri tutmuşdur. Bu uğurlu nəticə onu göstərir ki, Azərbaycan sözügedən sahəni ən effektiv idarə edən ölkələr sırasındadır. Bütün bunlar dövlətimizin qlobal səviyyədə böyük nailiyyətlər əldə etdiyini bir daha nümayiş etdirir. Azərbaycan Ermənistanın işğalından azad etdiyi ərazilərində - Qarabağ və Şərqi Zəngəzurda ekoloji sivilizasiya konsepsiyasına əsaslanan möhtəşəm işlər həyata keçirir. Yeni yaşayış mərkəzləri, sosial-iqtisadi infrasrukturlar həmin bölgələrdə bu tələbatlara tam uyğun olaraq yaradılır”.

Milli Məclisin deputatı Fariz İsmayılzadə çıxışında bildirib ki, Azərbaycan-Çin münasibətləri uğurla inkişaf edir. O Çin-Azərbaycan münasibətlərinin siyasi sahədə möhkəm təməl üzərində qurulduğunu diqqətə çatdırıb: ”İki ölkə arasında münasibətlər regional və beynəlxalq müstəvidə, o cümlədən Şanxay Əməkdaşlıq Təşkilatı, BRICS kimi platformalar çərçivəsində də inkişaf edir: ”Azərbaycanla Çin terrorizm və ekstremizmə qarşı mübarizədə eyni mövqe nümayiş etdirirlər”.

Onun sözlərinə görə, Çin və Azərbaycan arasında iqtisadi münasibətlərə ticari əlaqələr, infrastruktur layihələri, qarşılıqlı investisiyalar, eyni zamanda, iqtisadiyyatın qeyri-neft sahəsinə sərmayələr, tranzit dəhlizləri, energetika sahəsi, ”yaşıl enerji” və s. aiddir: ”Son illər ərzində Çin Qırğızıstanla Özbəkistanı, Xəzər regionunu birləşdirən yeni dəmiryolu layihəsinə başlayıb. Bu, əmtəə dövriyyəsini artıracaq və ”Bir kəmər, bir yol” layihəsini yerinə yetirməyə imkan verəcək”.

Millət vəkili bildirib ki, Azərbaycan üçün işğaldan azad edilmiş ərazilərə Çin investisiyalarının cəlb edilməsi önəmlidir: ”Azərbaycanın yeddi azad iqtisadi zonası var ki, Çin şirkətləri investisiya qoyuluşu edə bilərlər. Azərbaycanda aktiv olaraq bir neçə Çin şirkəti fəaliyyət göstərir. Atılan addımlar iki ölkə arasında əməkdaşlığın dərinləşməsinə imkan verəcək”.

O, son illər ərzində ölkələrimiz arasında mübadilə layihələrinin artdığını, birgə konfransların təşkil olunuduğunu, Çinin ali təhsil ocaqları ilə birgə ikili diplom proqramlarının həyata keçirildiyini vurğulayıb. ”Zənnimcə, iqtisadi, siyasi sahələrdə olduğu kimi, bu sahədə də geniş perspektivlər var”.

Çıxışlardan sonra tədbir iştirakçılarının sualları cavablandırılıb.

Konfransa yekun vuran YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bir daha Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançaoya ölkəmizə səfərinə görə təşəkkürünü bildirərək bu səfərin istər partiyalarımız, istərsə də ölkələrimiz arasında əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Konfrans Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

YAP Mərkəzi Aparatında görüş keçirilib

Aprelin 2-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla Çin Kommunist Partiyası (ÇKP) Mərkəzi Komitəsinin üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançaonun rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.



Görüşdə Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında diplomatik əlaqələrin mövcud olduğu 33 ildə qarşılıqlı faydalı münasibətlərin uğurla inkişaf etdiyi məmnunluqla vurğulanıb. Qeyd olunub ki, dövlət başçılarının milli mənafelərə cavab verən məqsədyönlü siyasətinin nəticəsi kimi, Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamənin qəbulu çoxşaxəli işbirliyinin dərinləşdirilməsi, iki ölkənin beynəlxalq müstəvidə bir-birinin maraqlarını müdafiə etməsi baxımından böyük əhəmiyyətə malikdir.

Azərbaycan ilə Çinin siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə əlaqələri genişləndirməkdə maraqlı olduqları vurğulanaraq ”Bir kəmər, bir yol” layihəsi və Orta Dəhliz çərçivəsində nəqliyyat-logistika sahəsində əməkdaşlığın önəmindən bəhs edilib.

Görüş zamanı dövlətlərarası münasibətlərin mühüm tərkib hissəsi kimi YAP ilə ÇKP arasında əlaqələrin inkişafının xüsusi diqqət mərkəzində olduğu vurğulanıb. Qarşılıqlı səfərlərin, fikir və təcrübə mübadiləsinin partiyalar arasında əlaqələrin mövcud vəziyyətinin dəyərləndirilməsi və gələcək əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyəti qeyd edilib. 2024-cü ilin noyabr ayında YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində ÇKP ilə əməkdaşlıq memorandumunun imzalanmasının ölkələrarası strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə önəmli töhfə olduğu bildirilib. Memorandumdan irəli gələn vəzifələrin yerinə yetirilməsinin partiyalar arasında qarşılıqlı inam, hörmət və etimada əsaslanan səmərəli işbirliyinin genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olunub. Bildirilib ki, yeni mərhələdə görüləcək işlər ortaq maraqları təmin etməklə həm partiyalarımız, həm də ölkələrimiz üçün faydalı və perspektivli olacaqdır. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

YAP-ın nümayəndələri və Çin Kommunist Partiyasının nümayəndə heyəti Ümummilli Lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər

Çin Kommunist Partiyası Mərkəzi (ÇKP) Komitəsinin üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançaonun rəhbərlik etdiyi nümayəndə heyəti Yeni Azərbaycan Partiyasının (YAP) dəvəti ilə ölkəmizə səfərə gəlib.

Səfər çərçivəsində aprelin 2-də YAP-ın nümayəndələri və ÇKP-nin nümayəndə heyəti Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər Xiyabanı ziyarət olunub. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər düzülüb, ”Əbədi məşəl” abidəsinin önünə əklil qoyulub.

KƏLBƏCƏR:

dəmir yumruğun və dəmir iradənin nəticəsi

Kəlbəcər dövlətimizin başçısı cənab İlham Əliyevin həyata keçirdiyi böyük siyasətlə müharibəsiz, döyüşsüz, itkisiz geri alındı. Bu qədim torpaq azad edildikdən dərhal sonra burada quruculuq, bərpa işlərinə başlanıldı ki, kəlbəcərlilər qısa zamanda doğma yurdlarına qayıda bilsinlər. Çünki düşmən bu yurdumuzu da qarət etmiş, buradan çıxarkən vəhşiliyin bütün növlərini əzəli Azərbaycan yurduna tətbiq etmişdi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev: ”Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcərdə kənd təsərrüfatı inkişaf edəcək, xüsusilə heyvandarlıq. Bizim orada böyük otlaq sahələrimiz var. Kəlbəcərin zəngin təbii qaynaqları, təbii ehtiyatları var. Düşmən bu ehtiyatları vəhşicəsinə istismar edib. Sovet vaxtında bütün sovet məkanında məşhur olan İstisu suyu Kəlbəcərdə istehsal olunurdu. İndi İstisu da bizim nəzarətimizə qayıdır. Vaxtilə ora böyük kurort zonası idi. Mənfur düşmən hər tərəfi dağıdıb. İndi o görüntülər var, hər kəs görə bilər. Hamısını bərpa edəcəyik, Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini. Tapşırıq vermişəm ki, şəhərin yenidən qurulması ilə əlaqədar baş plan hazırlansın, təkcə Kəlbəcər şəhəri yox, bütün şəhərlər üzrə həyat qayıdacaqdır”.

Bəli, bu gün Kəlbəcərin əcər hüsnü dövlətimizin başçısının dəyərli ifadələrini təzahür etdirir. Kəlbəcərə həyat qayıdır.

Kəlbəcərin sahibi gələcəkdi...

1993-cü il aprelin 3-də Kəlbəcər işğal olundu. 70 il əsarətdə yaşayan, sərvətləri mənimsənilən, əlləri bomboş olan bir xalqın əlindən alındı böyükmiqyaslı torpaqları, eləcə də Kəlbəcəri. Bu xalqın igid övladları çıxdı düşmənin qarşısına. Çünki tarixən Azərbaycan oğulları canından keçib, lakin düşmən qarşısından qaçmayıb. Son nəfəsinədək torpaq uğrunda vuruşub. Lakin əliboş, silahsız nə etmək olardı?

Ozamankı hakimiyyət mənsublarının başı vəzifə kürsüsünə qarışmışdı. Odur ki, Qarabağdan və Şərqi Zəngəzurdan kömək üçün edilən çağırışları eşitmir, zənglərə cavab vermirdilər. Çünki bu torpaqların satılması qarşılığında vəzifədə qalacaqlarına vəd verilmişdi. Ona görə də nəticə belə oldu: Kəlbəcərin 58 mindən artıq əhalisi minillərboyu yaşadığı ata-baba torpağından qovularaq didərgin salındı, 321 nəfər əsir düşdü və ya girov götürüldü, 511 nəfər vəhşicəsinə qətlə yetirildi. 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibb məntəqəsi, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə mənzil, 100 min qaramal, 500 min baş qoyun-quzu, 100-lə maşın, texnika və sair talan edildi, rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşındı.

Kəlbəcər bu taleyi yaşadı, bəli. Lakin bu o demək deyildi ki, Azərbaycanın bu qədim torpaqları əbədiyyən erməni tapdağı altında qalacaqdı. Bu o demək deyildi ki, evindən-eşiyindən didərgin salınan minlərlə insanın bu taleyi ilə barışılacaqdı. Milyardlarla manatlıq sərvətin dağıdılmasına göz yumulacaqdı.

Gələcəkdi zamanın da sahibi, torpaqların da. Və gəldi də. 30 ildə bu ölkənin sərvətlərinin əsas hissəsi ordu quruculuğuna ayrıldı, 30 il əvvəlki uğursuzluğu uğurla əvəz etmək üçün. Torpaqları yağıdan azad etmək üçün. İnsanların üzərindən qaçqın, köçkün, yurdsuz adını götürmək üçün. Onları yurdlarına geri qaytarmaq, torpaqların ətrini yenidən qoxulatmaq üçün.

Ölkəmizin Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin həm hərbi, həm də siyasi bacarığı ilə çoxəsrlik tariximizə 44 səhifə əlavə olundu. Bu 44 səhifəyə 200-300 minilliyə bərabər tarix yazıldı. 10 noyabr Bəyanatı ilə Qarabağ probleminə son qoyuldu.

Bir güllə belə atılmadan...

2020-ci ilin payızına-44 günlük Vətən müharibəsinə qədər Kəlbəcər bir-birinin ardınca 27 qış yaşadı. Bahar gəlmədi bu qədim yurda. Gələ də bilməzdi. Çünki Kəlbəcər baharı qovmuşdu ağuşundan. Köksünü qışa açmışdı. Ta azad olanadək qış ömrü yaşayacağına and içmişdi. Dağlarının min rəngli, min bir ətirli çiçəyinə ”get”,- demişdi. ”Gəlmə, hüsnümü bəzəmə, ruhumu oxşama, yaslıyam, qoy yasımı tutum”,- demişdi.

Kəlbəcər özünü bütünlüklə qışa vermişdi. Qara, buza, soyuğa vermişdi. Kimlə bahar qarşılayacaqdı ki?.. Doğmaları bu yurddan zorla çıxarılmışdı. Bağrı üstündə düşmən tapdağını hiss etdikcə Kəlbəcər əzilirdi, doğmalarının həsrəti ilə yanıb-yaxılırdı. Sərvətlə dolu köksünə hər dəfə əl uzadıldıqda haray çəkirdi. Düşmənin talançılığına qarşı üsyan edirdi. Lakin səsi yalnız dağ-daşına yayılır, əks-səda verir və yenidən bağrına qayıdıb onu boğurdu...

27 qış keçdi Kəlbəcərin ömründən... Doğmalarının olmadığı qış. Kəlbəcərin gözünün yollarda qaldığı qış... Sən demə 27-ci qış Kəlbəcərin son qışı olacaqdı. 2020-nin payızı Kəlbəcəri qışa deyil, bahara aparacaqdı. Payız bahara çevrilib Kəlbəcərin 27 illik həsrətini də vüsala çevirəcəkdi. 27 il əvvəl gülləbaran yağışı altındakı işğalından fərqli olaraq, bu dəfə bir güllə belə atılmadan azad ediləcəkdi. Çünki məxsus olduğu ölkə 27 il öncəki ölkə deyildi. Hakimiyyət kürsüsünü möhkəmlətmək üçün satılaraq Kəlbəcəri bir qələmlə silib onu ermənіyə hədiyyə edən AXC-Müsavat birləşməsi çoxdan tarixin qara qutusuna atılmışdı. Onlardan əsər-əlamət belə qalmamışdı. Özləri yaşasalar da, xalq onları silmişdi. Bir daha onlara inanmamağa and içərək silmişdi.

Kəlbəcərin işğalı ilə azadlığı arasında ötən zaman kəsiyində isə onun və Qarabağın bütün işğal altında olan torpaqlarının azad olunması üçün uzun illərlə iş aparılmışdı. Ulu Öndərimizin bu istiqamətdə həyata keçirdiyi işlər cənab İlham Əliyev tərəfindən elə bir səviyyəyə gətirilmişdi ki, ya sülh, ya da hərb yolu ilə bu torpaqların azad olunması reallaşacaqdı. Uzun illər sülh yoluna cəhd edilsə də, lakin dünya susdu və biz hərb yolunu seçməli olduq. Hərb yolu ilə 44 gün içərisində Azərbaycan Milli Ordusu elə bir bacarıq nümayiş etdirdi ki, dünənədək susan dünya dilə gəlib bu səriştədən danışmağa başladı. Beləliklə, Qarabağa və Şərqi Zəngəzura yeni bir həyat qayıtdı. Bu yeni həyatdan Kəlbəcərə də pay düşdü.

Baş planla özünəməxsusluğu qorunan Kəlbəcər

Soydaşlarımızın ata-baba torpaqlarına qayıdarkən gözəl şəraitdə yaşaya bilməsi üçün dövlətimiz tərəfindən İkinci Vətən müharibəsindən dərhal sonra geniş quruculuq tədbirlərinə başlandı.

2023-cü ildə dövlətimizin başçısı Kəlbəcər şəhərinin Baş planı ilə tanış olarkən məlumat verilmişdi ki, onun hazırlanması zamanı özünəməxsus simasının formalaşdırılması üçün ərazinin coğrafi yerləşməsinə, quruluşuna uyğun olaraq müxtəlif memarlıq ənənələri də araşdırılıb, tətbiq edilə biləcək nümunələrlə bağlı təkliflər verilib. Baş planın konseptual əsasını sağlamlıq və dağ turizmi imkanlarının inkişafı, təbiətlə vəhdətdə yaşıl şəhər mühitinin yaradılması təşkil edir. Şəhərin mərkəzi hissəsində çoxmənzilli binalar, ətraflara doğru isə həyətyanı sahəsi olan fərdi evlər inşa olunacaq. 20 il ərzində Kəlbəcər şəhərinin ərazisinin 237 hektara, əhalisinin sayının isə 17 min nəfərə çatacağı proqnozlaşdırılır.

Baş planda nəzərdə tutulanlar Kəlbəcərin yaxın gələcəkdə sahib olacaqlarını gözlər önündə canlandırır. Budur, bu yurd yeri dövlət başçısının Kəlbəcərə səfərindən biri zamanı söylədiyi "Bu da gözəl Kəlbəcər dağları, hər tərəf dağ, çay, meşə, cənnətməkan. Cənnətə də çevriləcəkdir" dəyərli fikirlərində-



ki kimi, qurulur, yaradılır, cənnətə çevrilir.

2021-ci ildə Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının yenidən qurulması, 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının fəaliyyətə başlaması, Prezident cənab İlham Əliyevin Sərəncamına əsasən 72,8 kilometr uzunluğunda Kəlbəcər-Laçın avtomobil yolunun tikintisinə başlanması, bu yol üzərində 3,4 kilometr uzunluğundakı tunelin təməlinin qoyulması, İstisuya əvvəlki şöhrətini qaytarmaq üçün 51 kilometr uzunluğunda İstisu-Minkənd yolunun tikintisi Kəlbəcərin azadlığından sonra abadlığına doğru gedən yolda ilkin olaraq gördüklərimiz idi.

Hər səfər bir töhfədir

Dövlətimizin başçısının Qarabağa və Şərqi Zəngəzura hər dəfə səfərləri bu qədim yurd yerlərinin inkişafına yeni töhfələrlə yadda qalır. 2020-ci ildən başlanan səfərlərin hər birində bunun şahidi olmuşuq. 2023-cü ilin may ayınının 27-də isə bir daha gördük. Cənab İlham Əliyev Kəlbəcərin hüsnünü oxşayan neçə-neçə tikililərin təməlini qoymaqla, açılışlarını etməklə bu yurd yerinin dirçəlməsi, sakinlərinin tezliklə ata-baba ocaqlarına qayıtmaları üçün yeniliklərə imza atdı.

Yurd salmaq, binə etmək ən savab əməldir. Dağıdılan, viran edilən yurdların bərpası isə ikiqat savabdır. Odur ki, dövlətimizin başçısı həm torpaqlarımızın düşməndən geri alınmasına, həm də yurdlarımızın bərpa edilməsinə görə yüzilliklərlə yaşı olan xalqımızın tarixində özünəməxsus yer qazanıb.

Həmin gün Kəlbəcərin 900-dən artıq ailənin məskunlaşacağı Yanşaq və Zallar kəndlərinin təməli qoyulması da bu missiyanın davamı oldu.

Prezident İlham Əliyev çıxışlarının birində deyirdi: ...Kəlbəcəri tərk etmək üçün onlara vaxt verəndə nə etdilər? Evləri yandırmağa, ağacları kəsməyə başladılar və 32 su elektrik stansiyasını dağıtdılar. Təsəvvürünüzə gətirirsinizmi?

İşğaldan azad edilən ərazilərin "yaşıl enerji zonası"na çevrilməsi ilə bağlı dövlətimizin başçısının tapşırığına uyğun olaraq, Vətən müharibəsində Qələbədən sonra ümumi gücü 20 meqavat olan "Güləbird", "Suqovuşan-1", "Suqovuşan-2" , 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik stansiyaları tikilib istifadəyə verildi. Artıq bu stansiyalarda milyonlarla kilovat/saat elektrik enerjisi istehsal olunur.

Kəlbəcəri nura boyayacaq stansiyalardan növbətisi ermənilərin buranı tərk edərkən avadanlıqlarını daşıyaraq tamamilə dağıtdıqları "Qamışlı" və "Meydan" Kiçik Su Elektrik stansiyaları oldu. Dövlətimizin başçısı həmin gün ümumilikdə il ərzində 18,5 milyon kilovat-saat ekoloji cəhətdən təmiz yaşıl hidroenerjinin istehsal edilməsi nəzərdə tutulan "Qamışlı" Kiçik Su Elektrik Stansiyasını və il ərzində 10 milyon kilovat-saat elektrik enerjisi istehsal edəcək "Meydan" Kiçik Su Elektrik Stansiyasını işə saldı.

Yol döyünən ürəkdir. Bir nasazlıqla tamamilə dayana, fəaliyyətdən qala bilir. Ürək insanı yaşadırsa, yol da iqtisadiyyatın var olması deməkdir. Elə buna görə də dövlətimizin başçısı hələ müharibə bitməmişdi, azad edilən torpaqlarda yol infrastrukturunun qurulması üçün tapşırıqlar verirdi. Hazırda Qarabağda və Şərqi Zəngəzurda minlərlə kilometr yol çəkilir, abadlaşdırılır, bərpa olunur.

Prezident İlham Əliyev 2023-cü ilin mayında uzunluğu 82 kilometr olan Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda inşa edilmiş tunellər və 2021-ci ilin noyabrından 2023-cü ilin mayınadək ümumilikdə bu yolda və uzunluğu 76 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolunda görülən işlərlə tanış oldu.

2022-ci ildə-26 İyun-Silahlı Qüvvələr Günündə Kəlbəcərdə dövlətimizin başçısının iştirakı ilə hərbi hissə açılmışdı: Bu gün Kəlbəcərdə ikinci komando hərbi hissəsi açılır. Növbəti komando hərbi hissələrinin açılması nəzərdə tutulur və bu silahlı birləşmələrdə minlərlə azərbaycanlı xidmət edəcək... Bu, bizim gücümüzü daha da artıracaq. Biz Kəlbəcəri bir güllə atılmadan azad etdik, öz doğma diyarımızı qaytardıq və bu gün Kəlbəcərdə quruculuq işləri gedir. Mən ikinci dəfədir Kəlbəcərə gəlirəm və bu gün də bir çox tədbirlər var. Kəlbəcərin infrastrukturu, elektrik təchizatı, su təchizatı, evlərin tikilməsi - artıq buna start verilir. Əlbəttə ki, biz, ilk növbədə, hərbi təyinatlı yolları inşa etməliydik və bunu etdik. Bu gün bu hərbi hissənin açılması bir daha göstərir ki, biz istədiyimizə nail olacağıq - Qarabağı və Şərqi Zəngəzuru bərpa edəcəyik. Artıq bu proses başlamışdır və ilk növbədə, bu bölgədə - Qarabağda və Şərqi Zəngəzurda bizim hərbi gücümüz daim möhkəm olmalıdır. Ona görə bugünkü mərasim xüsusi məna daşıyır, rəmzi məna daşıyır.

2023-cü il may ayının 27-də Kəlbəcərdə 3,6 hektar ərazidə salınan hərbi hospitalın açılması isə ordu quruculuğuna növbəti töhfə kimi dəyərləndirildi.

Erməni vandalizminə məruz qalan Kəlbəcər şəhəri də digər azad torpaqlarımızdakı şəhərlər kimi yeni həyatının astanasındadır. Bu müqəddəs torpaqların üzərində qurulub-yaradılanların hər biri illərlə yurdundan kənarda qaçqın və məcburi köçkün həyatı yaşayan insanlara 30 illik zaman kəsiyindən sonra bəxş edilən xoşbəxtlikdir. Çünki onlar bu yaradılanlar sayəsində doğma yurdlarına qayıda və rahat, firavan həyatlarına başlaya bilərdilər.

2023-cü ilin may ayındakı səfəri zamanı Prezident İlham Əliyev tərəfindən Kəlbəcər şəhərində təməli qoyulan 3,26 hektar ərazidə layihələndirilmiş və 112 mənzildə ümumilikdə 460 nəfərdən çox sakin yaşayacağı yaşayış məhəlləsi də kəlbəcərlilərin sevincinə səbəb olmuşdu. Çünki görülən işlərin hər biri onları doğma yurdlarına bir addım da yaxınlaşdırırdı.

Ölkəmizdə son 20 ildə təhsil sahəsində uğurlu nailiyyətlər əldə olunub. Bunun əsasını isə dövlətimizin bu sahəyə göstərdiyi qayğı təşkil edir. Bu qayğını hazırda azad Qarabağımızda və Şərqi Zəngəzurumuzda görməkdəyik. Dövlətimizin başçısının 2023-cü ildə Kəlbəcərə növbəti səfəri çərçivəsində Kəlbəcər şəhərində 960 şagird yerlik məktəbin təməlini qoyması ölkəmizdə hər bir uşağın gələcəyinin ən yaxşı şəkildə təminatı kimi dəyərləndirildi.

2024-cü ilin sentyabr ayının 2-də cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Kəlbəcərə növbəti səfərləri yenə də bu qədəm yurd yerinə neçə-neçə töhfə bəxş etdi: Kəlbəcərdə Tərtər çayı üzərində yerləşən "Yuxarı Vəng" Su Elektrik Stansiyası istifadəyə verildi. Xudavəng monastır kompleksinə, Kəlbəcər rayonunun Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu layihəsi çərçivəsində inşa olunan 4-cü tuneldə və bu yolun 15,2 kilometrlik hissəsində görülən işlərə baxış oldu. Kəlbəcər şəhərində ikinci yaşayış kompleksinin təməlini qoyuldu. Kəlbəcər Şəhər Təhsil Kompleksində aparılan işlər və açılacaq modul tipli məktəbin layihəsi ilə tanışlıq oldu. Kəlbəcər şəhərində inzibati binanın təməlini qoyuldu. Kəlbəcər şəhərində 524 ailəlik yaşayış kompleksinin tikintisi ilə tanışlıq oldu. Kəlbəcərdə "İstisu" mineral su zavodu, "Zar" KSES və "İstisu" yarımstansiyası istifadəyə verildi. İstisu" Müalicə-İstirahət Kompleksində aparılan tikinti işləri ilə tanışlıq oldu.

Kəlbəcərdə dalğalanan Azərbaycan bayrağı

2020-ci il noyabrın 25-i Azərbaycan tarixinə Kəlbəcərin erməni işğalından azad edildiyi gün kimi yazıldı. Prezident İlham Əliyevin 2023-cü ilin 31 iyulunda imzaladığı Sərəncama əsasən bu şanlı tarix Kəlbəcər Şəhəri Günü kimi qeyd olunur.

2021-ci il avqustun 16-da Prezident İlham Əliyev Kəlbəcər şəhərində Dövlət Bayrağını ucaltdı və çıxışında bu tarixi hadisənin əhəmiyyətindən bəhs edərək dedi: "Ermənilər 30 il ərzində bizim torpaqlarımızı ancaq istismar edirdi, təbii sərvətləri talayırdı, evləri dağıdırdı, sökürdü. Sonra da deyirdi ki, bura erməni torpağıdır. Bura heç vaxt erməni torpağı olmayıb və bundan sonra heç vaxt olmayacaq. Bu, Azərbaycan torpağıdır. Biz azərbaycanlılar - bu torpaqların sahibləri qayıtmışıq. Düşməni torpağımızdan qovaraq, düşmən ordusunu məhv edərək, qəhrəmanlıq, fədakarlıq göstərərək qayıtmışıq".

Azərbaycanın vətənpərvər oğullarının canı-qanı bahasına alındı torpaqlarımız. Elə məhz buna görə də 2020-ci il noyabrın 26-da "Kəlbəcərin azad olunmasına görə" medalı təsis edilib. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 9424 hərbi qulluqçusu "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olunub.

Çox qısa bir zaman qalır ki, kəlbəcərlilər qürur duyduqları bu bayrağın dalğasını öz doğma yurdlarında seyr edələr. Çünki burada həyata keçirilən nəhəng quruculuq işləri "Böyük Qayıdış"ın uğurlu perspektivindən xəbər verir.

***

Azad torpaqlarımız haqqında yazı yazmaq o qədər gözəldir ki... Adam hər sərlövhəni ürəyinin səsi ilə seçdikcə, hər cümləni qürurla yazdıqca, özünü xoşbəxtlərin xoşbəxti hiss edir. Ən əsası ona görə ki, cəmi beş ildən də az bir müddətdə Qarabağda və Şərqi Zəngəzurda bu qədər işlər görülüb. Kəlbəcər də əcər hüsnü ilə onların sırasındadır.

Başqa cür ola da bilməzdi. Torpaqlarımız cəmi 44 gündə işğaldan azad olundusa, təbii ki, 5 ilə yaxın dövrdə də bu qədər bərpa işləri görüləcəkdi. Çünki Zəfərimiz dəmir yumruğun nəticəsi idisə, postmüharibə dövrü isə dəmir iradənin nəticəsidir.

Mətanət Məmmədova

Andrey Fyodorov: ”Ermənistan və Qərb çox hiyləgərdir, sazişin mətni çox diqqətlə analiz edilməlidir”

Rusiya xarici işlər nazirinin keçmiş müavini Andrey Fyodorov ”Moskva-Baku”ya müsahibəsində Bakı və İrəvan arasında sülh müqaviləsinin imzalanması perspektivlərini şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

- Andrey Vladimiroviç, Almaniya prezidentiŞtaynmayer Ermənistana səfər etdi və həm Azərbaycanda, həm də Rusiyada suallar doğuran çox şey dedi və etdi. Separatçıların, ləğv edilmiş "DQR"-in bayrağının dərcindən başlayaraq, İrəvanın sülh müqaviləsi üçün çox iş gördüyünü və Bakının bütün bunları qəbul edib tezliklə sülhə imza atmasının vacib olduğu barədə bəyanatla bitir; Ermənistanın "uzun müddətdir davam edən təhlükəsizlik və iqtisadi asılılığını aradan qaldırmaq" (Rusiyanı nəzərdə tutur) üçün cəsarətə ehtiyacı olduğunu və Almaniyanın həm "Dünyanın kəsişməsi"ni, həm də Ermənistanın Aİ ilə yaxınlaşmasını dəstəklədiyi və açıq-aşkar balanssız olan bir çox başqa bəyanatlar var idi. Bundan əlavə, Kaja Kallasın İrəvana səfəri də açıqlanıb...

- Mən artıq bir neçə dəfə qeyd etmişəm ki, Ermənistanın Avropa İttifaqına doğru hərəkəti bu gün daimidir, onu geri qaytarmaq mümkün deyil. Çünki Paşinyanın bütün siyasəti qərbyönlü kurs üzərində qurulub.

Avropa İttifaqı burada əsas rol oynayır, çünki o, bir tərəfdən Ermənistanla sadəcə əlaqələrini inkişaf etdirməkdə maraqlıdır, növbədə, əlbəttə ki, Fransa, ikincisi, Avropa İttifaqı Ermənistandan qarşılıqlı hərəkət görür. Bundan necə yararlana bilməsin? Yəni, bu, Avropa İttifaqının birtərəfli hərəkəti deyil ki, birtəhər bağlı qapını döyüb soruşsun: ”uşaqlar, baxın, bəlkə Avropa İttifaqına yaxınlaşasınız”. Xeyr. Avropa İttifaqı aydın görür ki, Ermənistanda uzun müddətdir ki, proses gedir. Müvafiq olaraq, Qərbin iki yolu var: ya proseslə getmək, ya da ona rəhbərlik etmək. Aİ isə liderlik yolunu seçir ki, bunu da indi edir. Növbəti mərhələ Ermənistanda ölkənin Avropa İttifaqına daxil olması ilə bağlı referendumun keçirilməsidir.

”DQR” bayrağının dərc edilməsi və Ermənistan-Azərbaycan münaqişəsində Ermənistana açıq dəstək verən bəyanatlar Almaniyaya niyə lazım idi? Burada bir sadə şeyi başa düşməliyik: Aİ-nin əsas ölkələrində Ermənistanla bağlı müəyyən konsensus var. Və bu konsensus ondan ibarətdir ki, Ermənistan Respublikası, belə demək mümkünsə, Avropa İttifaqının astanasında olduğu nöqtəyə qədər dəstəklənməlidir. Sadəcə olaraq başqa variant yoxdur. Avropa İttifaqında, dediyim kimi, onlar Ermənistan rəhbərliyinin Avropaya inteqrasiya istəyini, bu prosesə və Ermənistana təsir imkanlarını çox aydın görürlər. Təbii ki, bu, Azərbaycan və Rusiyanın xoşuna gələ bilməz və gələcəkdə də xoşuna gəlməyəcək, çünki Ermənistanla Avropa İttifaqı arasında təmasların həcminin yalnız artacağı tamamilə aydındır. Bu, siyasi reallıqdır. Azərbaycan başa düşməlidir ki, bu reallıqda işləməli olacaq. Bu, Aİ-nin mövqeyini dəyişməyəcək. Düşünürəm ki, Bakıda bunu başa düşürlər və bununla bağlı nə edəcəklərini bilirlər. Belə olan halda Azərbaycan müxtəlif vəziyyətlər üçün bir neçə strategiya variantı hazırlamalıdır. Bakı başa düşür ki, Avropa İttifaqı ilə kəskin münaqişəyə girməyin mənası yoxdur. Lakin Bakı təbii olaraq Avropa İttifaqı ilə münasibətlərini davam etdirəcək və proseslərə baxışını ardıcıl şəkildə izah edəcək.

-Məlumat var ki, Paşinyan Rusiya ilə münasibətləri intensivləşdirməyə göstəriş verib, hansı məqsədlə?

- Paşinyan sadəcə olaraq müxtəlif şəraitdə manevr etməyi bilir, o, çox yaxşı başa düşür ki, Rusiyanı çox qıcıqlandırmaq onun üçün son dərəcə zərərlidir. Bu qıcıq səngiməsə də, xatırladığımız kimi, bu yaxınlarda rəsmi İrəvandan onun KTMT-yə verdiyi töhfələrə görə borclarını ödəmək niyyətində olmadığı və s. açıqlamalar verilib. Yəni, İrəvan bir tərəfdən qərbyönlü yolla gedir, amma sərfəli olmadığına görə Rusiyadan ayrılmaq istəmir.

- Ona görə Paşinyan mayın 9-da Moskvaya gedir?

- 9 May Sovet xalqlarının Qələbə mövzusudur və mən birini digərinə əlaqələndirməzdim. Eyni zamanda, aydındır ki, bu müddət ərzində Moskvaya səfər edən hər kəs öz problemlərini həll etmək üçün səfərdən ikitərəfli təmaslar üçün də istifadə edəcək.

- Belə çıxır ki, Aİ Ermənistanı, o cümlədən Azərbaycanla sülh müqaviləsi imzalamaqda mövqeyini dəstəkləyir. Axı İrəvan bu məsələdə yorğanı açıq-aşkar öz üzərinə çəkir, sülh sazişinin sərhəddə üçüncü dövlət qüvvələrinin yerləşdirilməməsi ilə bağlı bəndinə razılaşıb və yeri gəlmişkən, indi bəyan edir ki, bunun Almaniya nümayəndəsinin rəhbərlik etdiyi Aİ-nin sərhəd missiyasına aidiyyatı yoxdur və bu, nə hərbi, nə də mülki xarakter daşıyır, ona görə də üçüncü dövlət qüvvələrinin müdaxiləsini tapacaqlar. Sərhəddə vəziyyət, indi Ukraynada gördüyümüzlə təxminən eynidir. Bu, Aİ-nin ”qeyri-hərbi missiya” strategiyasıdır, Avropa siyasətində buna ”çəkindirici qüvvə” deyilir. Bu taktika bütün Avropa siyasətinə uyğun gəlir. Taktika qaynar nöqtələrdə ”tutma” anlayışına uyğun mexanizmlər yaratmaqdır. Və təbii ki, Ermənistan Azərbaycanla təmaslarda öz maraqlarını müdafiə edir.

-Aydındır, amma Azərbaycan bütün bunlara elə baxır ki, Ermənistan bu bəndin üçüncü tərəf tərəfindən bəyənilməsinə razılıq verib, indi isə bunu inkar etməyə çalışır. Bayaq dediyiniz kimi, sülh müqaviləsi mümkün qədər aydın və şəffaf olmalıdır və onun bəndlərinin fərqli şərhləri olmamalıdır. Onlar isə artıq İrəvan tərəfdən başlayırlar. Bu isə bir çox məqamlara aiddir, o cümlədən Rusiya, Azərbaycan və Ermənistan liderlərinin bəyanatının nəqliyyat və iqtisadi əlaqələrin açılması ilə bağlı 9-cu bəndinin Qərbin dəstəyi ilə İrəvanın "Dünyanın kəsişməsi" layihəsinə "transformasiyası"...

-Görürsünüzmü, Ermənistan bu məsələdə necə hiyləgərdir. İrəvan Avropa missiyasının hərbi missiya olmadığı fikrini təbliğ etməyə davam edəcək. Aydındır ki, bununla nə Bakı, nə də Moskva razılaşmır. Ermənistan deyir ki, bax, bunlar hərbi qüvvələr deyil, müşahidəçidir. Və belə olan halda həm Azərbaycan, həm də Rusiya üçün arqument tapmaq çətin olacaq.

Yeni şərhlərə və ”çevirmələrə” gəlincə- Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 9-10 noyabr 2020-ci il tarixli bəyanatı imzalamasından təxminən 4-5 il keçib. Bu müddət ərzində çox şey dəyişib. Təbii ki, İrəvan Ermənistan-Azərbaycan nizamlanmasında öz maraqlarını özünəməxsus şəkildə şərh edəcək və təbliğ edəcək. Hər kəs bunu edəcək.

- Belə çıxır ki, İrəvan həm də Ermənistan-Azərbaycan prosesinin müxtəlif aspektlərinin guya "sabitsizliyindən" mümkün qədər yapışaraq ATƏT-in Minsk Qrupu kimi beynəlxalq institutları mümkün qədər qorumaq istəyir? Bəs Ermənistan Konstitusiyanı dəyişib, Azərbaycana qarşı ərazi iddialarını ondan götürəcəkmi?

- Təbii ki, Ermənistan bunda maraqlıdır. İrəvanın öz maraqları üçün istifadə edə biləcəyi müxtəlif mexanizmlər nə qədər çox olarsa, təbii ki, Ermənistan hakimiyyəti üçün bir o qədər yaxşıdır, xüsusən də çirkli suda balıq tutmağın həmişə asan olduğu çoxtərəfli mexanizmlər.

Hesab edirəm ki, Azərbaycan sülh sazişinin mətnində maksimum şəffaflığa nail olmalıdır. Bəli, Bakı və İrəvan bunu bu yaxınlarda təsdiqlədi, amma aydındır ki, artıq məqamlar inkar olunur. Mətni yenidən yazmaq lazım olsa belə, hər şeyi mümkün qədər hərtərəfli işləməlisiniz.

Ermənistan Konstitusiyanı dəyişəcəkmi? Bu, ölkənin Aİ-yə daxil olması prosesinin başlanması ilə bağlı referendumla bağlı olacaq, ancaq paket kimi. Bu, əsas gündəm olacaq. Və bu, Ermənistanın Avropa istəklərini təsbit edən yeni Konstitusiya olacaq. Proses Gürcüstanda olduğu kimi davam edəcək. Və bu avrointeqrasiya gündəmi çərçivəsində İrəvan, necə deyərlər, sakitcə Azərbaycana qarşı ərazi iddialarını Konstitusiyadan çıxara bilər. Amma İrəvanın onları tamamilə yığışdıracağına şübhə edirəm. Əsas qanunda Qarabağla bağlı nə isə pərdələnəcək ki, Ermənistanın istənilən hakimiyyəti gələcəkdə Azərbaycana qarşı ərazi iddialarının qalmasını təmin etmək üçün istifadə edə biləcəyi həmin ”pəncərə” bir daha olsun. Deməli, Azərbaycan üçün işlər asan deyil.

Tərcümə - Elçin

Sarıcalı əzəli sakinlərini qarşıladı

Prezident İlham Əliyev: "13-cü yaşayış məntəqəsidir ki, keçmiş köçkünlər doğma yurda qayıdırlar"

Dünyanın ən inkişaf etmiş ölkələri sırasında inkişafına və digər keyfiyyətlərinə görə diqqət mərkəzində olan Azərbaycan 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi düşməndən azad etdi və tariximizə qələbə yazıldı. 2020-ci ilin noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu.

Bu gün işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Azərbaycan Prezidenti İlham Əliyevin həmin ərazilərə səfər etməsi və bərpa-quruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi görülən işlərin sürətini artırmaqla yanaşı, keyfiyyətinin də yüksək olmasından xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında yollarının yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur. Bütün bunlar Cənab Prezidentin düşünülmüş siyasətinin məntiqi nəticəsidir. İşğaldan azad olunan ölkəmizin inkişafı istiqamətində həyata keçirilən layihələr öz nəticəsini verir. İnkişaf və tərəqqi dövrünü yaşayan Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəriciləridir. Böyük Qələbənin nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir. Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir.

SARICALI KƏNDİNƏ 28 AİLƏ - 110 NƏFƏR KÖÇÜRÜLÜB

Vətən müharibəsində qazandığımız Zəfərdən dörd ildən artıq zaman ötməsinə baxmayaraq, işğaldan azad olunan ərazilərimizdə abadlıq və quruculuq işləri uğurla və davamlı şəkildə həyata keçirilir. Keçmiş məcburi köçkünlər öz əzəli torpaqlarına, doğma diyarlarına qayıdırlar. Ağalı, Talış kəndələrinə, daha sonra Laçın və Füzuliyə qayıdış

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, Ağdam rayonunun yenidən qurulan Sarıcalı kəndinə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bu mərhələdə Ağdam rayonunun yenidən qurulan Sarıcalı kəndinə 28 ailə - 110 nəfər köçürülüb. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. İllər öncə yurd-yuvasından didərgin düşənlər bu gün sönmüş çiraqlarını yandırıb, yeni həyata başlayırlar. Köç karvanları nisgilli, kədərli bir ömür yaşamış insanları əzəli torpaqlarına çatdırır. Bu karvanlar sanki növbəyə düzülüb. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan ərazilərə köçlər davam edir. Yenidən çiçəklənən ərazilərimiz doğma sakinlərini qarşılamağa davam edir.

Ağdam rayonunda quruculuq işlərinin geniş vüsət aldığı yerlərdən biri olan Sarıcalı kəndi işğal dövründə viran qoyularaq xarabalığa çevrilmişdi. Sarıcalı kəndi işğaldan azad edildikdən sonra burada azərbaycanlılara aid kütləvi məzarlıq aşkarlanıb. İşğaldan əvvəl kənddə 239 ailə, ümumilikdə 1024 nəfər əhali yaşayıb. Bu kəndin təməlini 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev qoyub.

Sarıcalı kəndi 1873 nəfər (425 ailə) əhali üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 123 hektardan çoxdur. Ümumilikdə kənddə 2 mərhələ üzrə 425 fərdi evin inşası nəzərdə tutulub. Burada əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, təhsil, iqtisadi, sosial və məişət təyinatlı müxtəlif müəssisələr, klub-icma və mədəniyyət mərkəzləri tikilib. Burada sosial məsələlər də öz həllini tapıb. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub.

Birinci mərhələ üzrə buraya 895 nəfərin (203 ailə) köçürülməsi planlaşdırılır. Artıq 203 fərdi ev inşa olunub. Evlər iki, üç, dörd və beşotaqlıdır. Məskunlaşdırılacaq əhalinin gələcək sayı nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 54 hektar torpaq sahəsi ayrılıb.

"KƏNGƏRLİ, XIDIRLI KƏNDLƏRİNƏ BU İL QAYIDIŞ NƏZƏRDƏ TUTULUB"

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "40 mindən çox insan yaşayır və çalışır. İlin sonuna qədər də təqribən 30 min, 40 min qayıtmalıdır."

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 27-də Ağdam rayonunun Sarıcalı kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər. Burada Sarıcalı kənd körpələr evi-uşaq bağçasının açılışı olub. Müasir standartlara uyğun inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçasında azyaşlıların təlim-tərbiyəsi və onların sağlam mühitdə yetişmələri üçün hər cür şərait var. Açılışı edilən Sarıcalı kənd tam orta məktəbi 14 sinif otağı olan 360 şagird yerlikdir.

Məktəbin ərazisində idman meydançası inşa olunub. Bu meydançadan şagirdlərlə yanaşı, dərsdənkənar saatlarda kənd əhalisi də istifadə edə biləcək. Ərazidə oyun və istirahət sahələri yaradılıb, yaşıllıqlar salınıb.

"Bura artıq 13-cü yaşayış məntəqəsidir ki, keçmiş köçkünlər doğma yurda qayıdırlar. Bütün keçmiş köçkünlər üçün gələcəkdə bu cür şərait yaradılacaq. Ağdam rayonunun işğaldan sonra birinci yaşayış məntəqəsi keçmiş köçkünlərin sərəncamına verilir. Ancaq bu il digər kəndlərə də ağdamlılar qayıdacaqlar. Kəngərli, Xıdırlı kəndlərinə bu il qayıdış nəzərdə tutulub, digər kəndlərdə inşaat işləri gedir. Təbii olaraq, Ağdam şəhəri sıfırdan qurulur, yenidən qurulur və ölkəmizin ən gözəl şəhərlərindən birinə çevriləcək", - deyə Prezident bildirib.

"İKİNCİ MƏRHƏLƏ BAŞA ÇATANDAN SONRA TƏQRİBƏN EVLƏRİN SAYI 400-Ə ÇATACAQ"

Dövlət başçımız bundan sonra da bərpa işlərinin davam edəcəyini diqqətə çatdırıb. Sarıcalı kəndinin birinci mərhələsinin inşası başa çatıb və burada hazırda 200-dən çox ev var. "Amma ikinci mərhələ başa çatandan sonra təqribən evlərin sayı 400-ə çatacaq. Yaşamaq üçün bütün şərait var. Gözəl, yaraşıqlı evlər, elektrik, su, qaz, istilik, gözəl məktəb, uşaq bağçası, tibb məntəqəsi, idman meydançası, ictimai xidmət yerləri, hətta bazar kompleksi də var. Evlərin həyətyanı sahəsi də kifayət qədər böyükdür - 12 sot. Eyni zamanda, ətraf ərazilərə su veriləndən sonra o torpaqlarda da əkin-biçin işləri aparmaq mümkün olacaq. Sərsəng su anbarı və Suqovuşan su anbarı bu imkanı bizə yaradacaq. Sadəcə olaraq, vaxtilə inşa edilmiş kanallar bərpa edilməlidir. Bu istiqamətdə də iş gedir. Yaxşı bilirsiniz, həm Sərsəng, həm Suqovuşan su anbarları Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmişdi ki, o cümlədən Ağdam və bir neçə ətraf rayon suvarma suyu ilə təmin olunsun. İşğal dövründə düşmən suyumuzu da kəsmişdi. İndi biz öz su resurslarımıza da sahib olduq. Xaçınçay su anbarı artıq bərpa edilib və Suqovuşandan gələn kanal vasitəsilə Ağdamın bütün ərazisi və qonşu rayonların əraziləri suvarılacaq. Bu gün təqribən 100 min hektar suvarılmayan torpağa su gətiriləcək", - deyə Prezident bildirib.

Sevindirici haldır ki, Azərbaycanın işğalçı Ermənistan üzərində parlaq qələbə qazanmasından sonra qısa bir zamanda azad olunan ərazilərimizdə bərpa-təmir, abadlıq və quruculuq işlərinə start verildi. Reallaşan layihələr işğaldan azad edilmiş rayon, kənd və qəsəbələrin sosial-iqtisadi inkişafında çox mühüm rola malikdir. İrimiqyaslı layihələr sırasında beynəlxalq hava limanları, "yaşıl enerji" zonasının yaradılması məqsədilə pilot layihələr qismində bəzi yerlərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqinə start verilməsi və s. ərazilərdə aparılan abadlıq quruculuq işləri Böyük Qayıdışın təntənəsidir.

44 günlük Vətən müharibəsində 30 ilə yaxın zamanda erməni işğalı altında olan torpaqlarımız azad edildikdən sonra torpaqlarımızda aparılan abadlıq-quruculuq işləri ilə yanaşı, Azərbaycanın tarixi adları özünə qaytarılır, dini-tarixi abidələrimiz təmir və bərpa olunur.

Azərbaycan Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması istiqamətində kifayət qədər layihələri həyata keçirib və bu davamlıdır. Bu Azərbaycanın gücünün göstəricisidir.

Bildiyimiz kimi, qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin məlum Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilib. Bu prioritetlərə söykənən dövlət başçısının Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əks olunmuş "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edildi. Bu Dövlət Proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınmışdır.

Zümrüd BAYRAMOVA

Türkiyə olaylarında Qərb izi

Müxalifət Qərbin köməyinə ümid bəsləməməlidir - "Sabah"

"İstanbulun həbsdə olan bələdiyyə sədri İmamoğlunun təmsil olunduğu Türkiyə müxalifəti Ərdoğana qarşı mübarizədə Qərb qüvvələrinin köməyinə ümid edir", bu barədə "Sabah" yazır. "Lakin Qərb artıq əvvəlki kimi deyil, qlobalistlər Trampla qarşıdurmada uduzurlar və onların indi Türkiyə ilə məşğul olmağa vaxtları yoxdur", məqalə müəllifi qeyd edir. Türkiyənin daxili və xarici gündəmləri birbirinə tamamilə ziddir. Dünya Türkiyənin tarix yazmasından, beynəlxalq iyerarxiyanı dəyişməsindən danışarkən, ölkə daxilində, Cümhuriyyət Xalq Partiyasının (CHP) himayəsi altında, vətəndaş müharibəsi ssenarisini həyata keçirmək istədikləri üçüncü dünya dövləti imici yetişdirilir.

Bir tərəfdə müxalifəti xaosa mərc edən Türkiyə, digər tərəfdə dünya siyasəti masasına oturan Türkiyə var. Saxtakarların itirəcəyi şübhəsizdir. Ona görə də ideoloji korluqdan şikəst olan o dairələrdən başqa heç kim onlara dəstək vermir, onun korrupsiyada ittiham olunan siyasətçilərini müdafiə etmir. "Newsweek"in bir neçə ay əvvəl "Ərdoğana qarşı mərc edənlərin qalib gəlmək şansı yoxdur" xəbərdarlığı əbəs yerə deyildi. Üstəlik, jurnal bu xəbərdarlığı təkcə Türkiyə müxalifətinə deyil, Qərb lobbisinə də edib. Buna görə də CNN İnternational, BBC, The Economist və The New York Times kimi "Köhnə Qərb"in ideoloji strukturları vasitəsilə kömək diləyən müxalif partiyanın üzvləri növbəti məğlubiyyətlərlə üz-üzədirlər.

Bu strukturlar və onların təmsil etdikləri siyasi qüvvələr indi ABŞ prezidenti Donald Trampın başçılıq etdiyi Yeni Qərbin hücumları altında sağ qalmağa çalışırlar. Onların problemləri çoxdur. Bu şərtlər altında onların heç biri ölkəni xaosa sürükləyən müxalifətin şikayətlərinə, mərsiyələrinə və kömək istəmələrinə cavab verməyəcək. Çünki yeni dünya iyerarxiyasının Tramp, Rusiya prezidenti Vladimir Putin və Çin sədri Si Cinpin kimi liderləri, Ukrayna, Fransa, Böyük Britaniya, Almaniya kimi mövqeləri təhlükə altında olan oyunçular müxalifətin onu nə qədər devirməsini istəsələr də, Ərdoğanı xilaskar kimi görürlər.

Buna görə də CHP sədri Özgür Özəl və İmamoğlu cütlüyünün - Əkrəm və Dilekin xarici media vasitəsilə Qərb liderlərinə "Bu necə dostluqdur? Biz özümüzü tərk edilmiş hiss edirik. Türkiyədə ədalət yoxdur. Bizə kömək edin" ruhundaki bütün istəklərinə cavab verilməyəcək. Nəticədə heç kim onların çağırışlarına məhəl qoymur. Və burada müxalif partiyanın paradoksu özünü daha dərindən büruzə verir. O qədər pafosludurlar ki, Qərbə "Ərdoğanı devirməkdə bizə kömək edin" deyirlər, halbuki indiki Türkiyə rəhbərliyi təkcə Şimal və Qlobal Güneydə deyil, Yaxın Şərq və Afrikada da önəmli oyunçu kimi görünür.

Rusiya Prezidenti Vladimir Putin və digər iştirakçılar 24 oktyabr 2024-cü ildə BRİKS-in Kazan sammiti başlamazdan əvvəl qrup şəkli çəkdirdilər. Orada Ərdoğan ən hörmətli dünya lideri kimi qarşılandı, bu, dövlət başçılarının jestlərindən də görünürdü. HəttaTürkiyə müxalifətindən əvvəl Qərb eyni ssenari ilə Ərdoğana hücum etməyə çalışmışdı və məğlub olmuşdu. İndi Qərb ölkələri masada ata bilmədikləri əli sıxmaq üçün yarışır. Nə demək istədiyimizi anlamaq istəyənlərə məsləhət görürük ki, sosial şəbəkələrdəki ajiotajdan, İstanbuldakı etiraz aksiyalarından uzaqlaşaraq, son dörd-beş gündə qlobal diplomatik proseslərə diqqət yetirsinlər

Cümhuriyyətçilər NATO-nun baş katibindən kömək istəyir və o deyir: "Avropanın təhlükəsizliyini Türkiyəsiz təsəvvür edə bilmərik". Eyni ilə Putin və Trampın Ukraynada sülhün əldə olunması prosesində əsas rolu onlara həvalə etdikləri Türkiyə hakimiyyətini devirmək istəyir. Üstəlik, Türkiyə yeni dünya düzənində ABŞ və Rusiya ilə birlikdə "qlobal üçlüyün" bir hissəsi kimi qeyd olunur. Bu, Türkiyənin Liviya, Suriya, Somali, Efiopiya və Qətərdəki qələbələrdən sonra Sudanda oyunu yenidən qurduğu vaxtda baş verir. Beləliklə, Türkiyənin yardımı ilə Sudanda 23 aydır ölkəni sarsıdan vətəndaş müharibəsi sona çatıb. Beləliklə, indi CHP tarix yazan yeni Türkiyəni devirməyə çalışır. Amma bunu etmək çox çətindir, o vaxtlar geridə qalıb. Və CHP də sonda Ərdoğanın yenilməzliyinə öyrəşəcək. Hadisələrin gedişatı da məhz buna işarə edir.

Ərdoğanın rəqibləri onu iqtisadi dəstəkdən məhrum etmək istəyirlər

Türkiyə müxalifəti prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərlik etdiyi ölkənin maraqlarını təmsil edən şirkətlərin istehlakçı boykotunu təşkil etmək niyyətindədir. Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri Özgür Özəl hakimiyyətlə əlaqəsi olduğunu düşündüyü iri holdinqləri qara siyahıya salıb. Ərdoğanın əleyhdarları İstanbul bələdiyyə sədri və CHP-nin tanınmış üzvü Əkrəm İmamoğlunun həbsinə etiraz etmək istəyirlər. Ekspertlər proqnozlaşdırır ki, Türkiyə iqtisadiyyatı zəifləməyə davam edərsə, bu, etirazların miqyasına ciddi təsir göstərə bilər.

CHP Ərdoğanın əsas müxaliflərindən olan Əkrəm İmamoğlunun həbsinin davam etməsi ilə bağlı boykot edilməli hesab etdiyi türk şirkətlərinin siyahısını genişləndirmək qərarına gəlib. Parlamentdə ikinci ən böyük yerlərə sahib olan partiyanın sədri Özgür Özel tərəfdarlarına geniş portfelinə tikinti şirkətləri, hökumət mediası, enerji və daşınmaz əmlak firmaları, məşhur restoranlar və avtomobil distribüterlərinin daxil olduğu iddia edilən Ərdoğana bağlı olduğu iddia edilən Doğuş Qrup holdinqinin mal və xidmətlərindən imtina etmələrini söyləyib: "Doğuş Qrupu yerin altında basdırılacaq".

CHP bir həftə əvvəl Ərdoğanın ətrafı ilə əlaqəsi olduğu iddia edilən türk şirkətlərinə qarşı boykot taktikasına keçdiyini açıqlamışdı. Bununla belə, müxalifət indi qara siyahıya yeni adlar - daha böyük adlar və Türkiyənin həyati infrastrukturu ilə bağlı olanları daxil etmək üçün genişləndirir. İlk növbədə, boykot çağırışı İmamoğlunun həbsinə qarşı çıxan sadə türk istehlakçılarına ünvanlanıb. Bununla belə, Özəl son müsahibələrinin birində açıq şəkildə bildirdiyi kimi, hakim isteblişmentə iqtisadi təzyiqlər dövlət satınalmaları səviyyəsinə çata bilər. Beləliklə, onun fikrincə, 2024-cü il bələdiyyə seçkilərindən sonra müxalifət partiyasının əhəmiyyətli bir hissəsini nəzarətə götürdüyü bələdiyyələr və bələdiyyələr boykot edilmiş şirkətlərin mal və xidmətlərindən sadəcə imtina edə bilərlər. Müxalifət üzvləri avtomobillər kimi olduqca əhəmiyyətli şeylərlə bağlı olsa belə, bu məhsullardan imtina etməyə hazır olduqlarını vurğulayıb. O, boykotun praktikada təsirli olmasının vacibliyinə diqqət çəkib. Belə bir boykotun mexanizmi də aydındır - dövlət satınalmaları sistemi vasitəsilə. Bu, xüsusilə şəhərlərdə həssas ola bilər.

Ərdoğan açıq şəkildə müxalifətin yeni təzyiq tədbirlərini "iqtisadiyyatı sabotaj etmək" cəhdi adlandırıb. Onun fikrincə, son vaxtlar müxalifət tərəfindən edilən bu cür çağırışlar əsl təqibə səbəb olmalıdır. Türkiyə Müstəqil Sənayeçi və Sahibkarlar Birliyi də boykot taktikasının mənfi nəticələri ilə bağlı xəbərdarlıq edib. O, ölkənin "iqtisadi nailiyyətlərini" itirə biləcəyi ilə bağlı bəyanat yayıb. Birlik qeyd edir ki, daxili istehlakın iqtisadi artıma kritik təsirini nəzərə alaraq, müxalifət çağırışları xüsusilə "çətin şəraitdə" "istehsal və məşğulluğa mənfi təsir göstərə bilər".

"Son on gündə baş verənlər və küçə terroru soyğunçuluqları gizlətmək cəhdindən başqa bir şey deyil", - Ərdoğan İmamoğlunun həbs olunduğu gün CHP tərəfdarlarının başlayan etiraz fəaliyyətinə münasibət bildirərkən deyib. "İmamoğlu və onunla eyni işlərdə əli olan digər şəxslərlə bağlı istintaq irəlilədikcə və dərinləşdikcə, şübhəsiz ki, bələdiyyələri ahtapot kimi bürümüş cinayətkar təşkilatın çadırlarının hara çatdığı üzə çıxacaq".

Etiraz hərəkatı ilkin olaraq 2028-ci il prezident seçkilərində Ərdoğana güclü rəqib olacağı güman edilən İstanbul bələdiyyə sədrinin azadlığa buraxılması tələbinə yönəlsə də, indi şərtlərin siyahısı genişlənir. Nümayişçilər "repressiyalar"ın dayandırılmasını və digər "siyasi məhbuslar"ın azad edilməsini tələb edirlər. Digər siyasi qüvvələr, eləcə də öz gündəmi olan tələbə qrupları indi küçə hərəkatında dağılıblar.

Nümayişçilər hökumətdən digər şeylərlə yanaşı, sürətlə artan yaşayış bahalığına qarşı effektiv mübarizə aparmağı tələb edirlər. Türkiyə lirəsi və birjası İmamoğlunun martın 19-da baş verən həbsinə həssas reaksiya verib.Türkiyə Mərkəzi Bankı milli valyutanın məzənnəsini sabitləşdirmək üçün genişmiqyaslı müdaxilələr etməli olub. Maliyyə Nazirliyi də öz növbəsində xarici investorlarla danışıqlar apararaq, onları inandırmağa çalışıb ki, son on ildə Türkiyədə ən irimiqyaslı iğtişaşlar milli iqtisadiyyata heç bir təsir göstərməyəcək.

Bununla belə, ABŞ kəşfiyyatına bağlı "Stratfor" analitik mərkəzinin məlumatına görə, xarici investorlar son bir həftə ərzində Türkiyəyə investisiyalarını azaltmağa başlayıblar. Stratfor yazır: "Əgər siyasi böhran və bunun nəticəsində yaranan kapital axınları yaxın həftələrdə səngiməzsə, Türkiyə hakimiyyəti valyuta müdaxilələrini azaltmağa və daha yüksək inflyasiyaya səbəb ola biləcək daha əhəmiyyətli məzənnə tənzimlənməsinə icazə verməyə məcbur olacaq". Analitik mərkəzi hesab edir ki, artan iqtisadi təzyiq, hökumətin etirazlara reaksiyası və müxalifətin səfərbərliyi "hazırkı etiraz hərəkatının prezident Ərdoğanın hakimiyyətinə daha ciddi çağırışa çevrilməsinə imkan verə bilər".

Stratfor hesab edir ki, Türkiyənin iqtisadi göstəriciləri etirazların sürəti davam edərkən pisləşməkdə davam edərsə, bu, xüsusilə ölkənin yüksək inflyasiya ilə bağlı problemləri nəzərə alınmaqla, Ankaranın iqtisadi siyasətindən geniş ictimai narazılığı bir daha artıra bilər. Ekspertlərin fikrincə, bu, türk lirəsinin kövrək mövqeyini daha da pisləşdirəcək və hökumətin böhrana effektiv cavab vermək qabiliyyətini zəiflədəcək. "Davamlı etirazlar kürd yönlü DEM partiyası kimi digər müxalifət partiyalarını da hərəkata qoşulmağa sövq edə bilər və bu, Ərdoğanın hakimiyyətinə bu təhlükəyə daha bir qat əlavə edə bilər", - Stratfor tədqiqatçıları yekunlaşdırır.

V.VƏLİYEV

Vitamin D-nin orqanizm üçün üstünlüyü NƏDİR?

“Vitamin D orqanizm üçün çox vacib vitaminlərdən biridir. Yağda həll olunan vitamin olduğu üçün, bu daha çox yağlı qidalarla birlikdə qəbul olunmalıdır”. Bu sözləri SİA-ya açıqlamasında tanınmış həkim, dietoloq, uzun ömürlük üzrə ekspert, diet kitablar müəllifi Leyla Zülfüqarlı deyib.

O bildirib ki, əsas mənbəyi təbii ki, 10-20%-i qidalarımızdan ala bilirik, amma qidalanma qaydaları və həyat tərzi səhv olduqda əskiklik yarana bilər. Digər 80-90%-i isə günəşin ultrabənövşəyi şüalarının dəriyə çatmaması nəticəsində, yəni birbaşa günəşin ultrabənövşəyi şüasının dəriyə təması nəticəsində əldə edilir. Əsas qaynaq budur. Lakin, bizim coğrafi mövqeyimizə görə, ölkəmizdə ultrabənövşəyi şüaların daha az bucaq altında bizə çatması səbəbindən burada da vitamini D əskikliyi mövcuddur. 10-20%-ni qidalarımızdan almalı oluruq, amma bu sahədə də əskikliklər var. Yəni, iki tip vitamin D var: bitki mənşəli ergosterol (D2) və ya heyvan mənşəli vitamin D3 (kolesiferol).

Vitamin D əskikliyi nə zaman yaranır?

Bu, günəş şüasını kifayət qədər almadıqda və ya qidalanma düzgün olmadıqda baş verə bilər. Stress də vitamin D-nin sıfırlanmasına səbəb olan əsas amillərdən biridir. Günümüzdə hüceyrə daxilində artan stres faktı da bununla bağlıdır. Beləliklə, 20-30 il əvvəl bu qədər vitaminə ehtiyac yox idi, amma indi əskikliyini hiss edirik. Havanın çirklənməsi kimi amillər də ultrabənövşəyi şüaların dəriyə çatmamasına səbəb ola bilər. İkinci ehtimal isə stresin çoxalması, qalxanvari vəzi xəstəliklərinin artmasıdır və burada da vitamin D əsas rol oynayır. Bu xəstəliklərdən qorunmaq üçün vitamin D əhəmiyyətlidir.

Qidalarımızda artıq tərkib dəyişib, maddələr artıb-azalıb və bu səbəbdən əksikliklər çoxalıb. İlk simptomlardan necə bilirik ki, vitamin D azdır? Daha çox yorğunluq, tərləmə, quru dəri, saç tökülməsi, quru saç kimi ilkin simptomlar müşahidə olunur. Bunun laborator analiz metodu da var. 40-dan yuxarı və 100 milliqram arasında olan normativ normadır. 30-dan aşağı düşən defisit, 20 milliqramdan aşağı olan isə çox aşağı və onun altı çox ciddi defisit hesab edilir. İnsanlar bəzən 10-un altına düşürlər, 6.3 və s. olur. Bu, ciddi defisit sayılır, ona görə də vitamin D-ni yükləmə şəklində vermək məsləhətdir. Bu, 50 min təsir vahidi həftəlik doza olmaqla artırıldıqdan sonra gündəlik doza ilə davam etmək lazımdır. Yeni doğulmuş uşaqlarda gündəlik vitamin D dozası var, rəxit xəstəliklərinin qarşısını almaq üçün və s.

Ciddi vitamin D çatışmazlığı olan şəxslərdə gələcəkdə şəkərli diabet, sümük və oynaq xəstəlikləri yaranır. Ən əsas simptomlar tərləmə, yorğunluq, saç tökülməsi kimi əlamətlərdir. Sümük, əzələ və oynaq ağrıları ölkəmizdə daha çox yayılmış simptomlardır”.

”Vitamin D-nin əsas funksiyası orqanizmimizdə kalsiumun sovrulmasını sürətləndirməkdir. Bağırsağımızdan sovurur və kalsiumun damarlarımıza çatmasını təmin edir. Kalsiumun vitamin D normativində olması bizə sümük xəstəliklərinin, osteoporoz, oynaq ağrıları və s. qarşısını almağa kömək edir. Xanımlarda 40 yaşdan yuxarı xüsusilə vacibdir. Hər kateqoriya üçün çox vacib olan bir vitamindir. Yanında vacib mineral maqnezium minerali də qəbul olunmalıdır. Vitamin D3, K2 vitamini ilə daha çox qan damarımıza sovrulmuş vitamin D-ni sümüklərə daşıyır.

Vitamin D-nin əsas qida qaynaqları yumurta sarısı, balıq əti, bütün dəniz məhsulları, süd məhsulları, kərə yağı və s.-dir. Vitamin D gündəlik alınmalıdır, həm qida qaynağı olaraq, həm də dərimiz vasitəsilə günəş şüasından alınmalıdır. Vitamin D yağda həll olunan vitamin olduğu üçün, yağlı qidalarla qəbul olunmalıdır. Suda və yağda həll olunan vitaminlər var. Vitamin D daha çox cinsiyyət hormonu kimi qəbul edilir. Orqanizmimizdə funksiyalarından biri də cinsiyyət hormonlarının sintezində aktiv iştirak etməsidir” - deyə o, əlavə edib.

S. Ağazadə

“Daşınmaz əmlak qiymətlərinin artımı kirayə bazarına da təsir edir”

“Daşınmaz əmlak bazarında qiymətlər, xüsusilə də mənzillərin qiyməti artıb”. Bu sözləri SİA-ya açıqlamasında Daşınmaz əmlak məsələləri üzrə ekspert Ramil Qasımzadə deyib.

O bildirib ki, bu artım kirayə bazarının qiymətlərinə də təsirsiz ötüşmür: ”Bəzi vətəndaşlar biznes üçün yol seçiblər. Elə mənzillər var ki, onları alıb kirayə verirlər. Bu zaman da vətəndaşlar bank faizləri ilə uyğunlaşma aparırlar. Məsələn, bu gün bank faizləri ortalama 5%-dən yuxarı, 8, hətta 10% aralığındadır. Bu, o deməkdir ki, yüz min manata daşınmaz əmlak alan şəxs ən azı oradan illik olaraq 10 min manat gəlir götürmək istəyir. 100 min manat civarında olan mənzillərin kirayə qiyməti ortalama 500 manat təşkil edir. Bu da o deməkdir ki, təxminən 6 min manat gəlir əldə olunur. Bu səbəbdən mənzillərin qiymətinin artması, hətta bir otaqlı mənzillərin belə 100 min manatı keçməsi kirayə verənləri də sövq edir ki, kirayə qiymətlərini dəyisdirsin.

Daşınmaz əmlakın qiymətinin artımı kirayə bazarının qiymətinə də təsir edir. İkinci məsələ odur ki, tədricən ucuz mənzillər bazardan çıxmaq üzrədir. Köhnə tikili olan binaların sökülməsi, onun yerində yeni çoxmənzilli binaların inşa olunması bazara daha bahalı olan mənzillərin təklif olunmasıdır. Məlum olduğu kimi köhnə tikililərlə müqayisədə yeni tikililərin qiymətləri bazar dəyərinə uyğun olaraq daha bahadır. Təxminən köhnə tikililərdə qiymətlər birotaqlı üçün təxminən 400 manat təşkil edirsə, yeni tikililərdə bu qiymət minimum 500 manatdan yuxarı təklif olunur. İkinci səbəb odur ki, tədricən bazardan ucuz mənzillərin çıxması və yerinə daha bahalı mənzillərin gəlməsidir.

Üçüncü əsas səbəblərdən biri də budur ki, vətəndaşların da gəlirləri artmağa başlayır. Əmək haqqlarında da dəyişikliklər olunur. Bu, daşınmaz əmlak bazarına, xüsusilə də, kirayə bazarına təsirsiz ötüşmür. Bu da qiymətlərin artmasına səbəb olur.

Dördüncü və ən əsas faktorlardan biri də tələbin təklifi üstələməsidir. Yəni bu gün kirayəyə olan tələb təklifi bir neçə dəfə üstələyir. İki-üç dəfə bu gün tələb daha yüksəkdir. Bu səbəbdən də təklif az olduğu üçün tələb isə çox olduğu üçün qiymətlər artmaqda davam edir”.

Söylü

MÜNA-QİŞƏT

İLHAM

TV-lərin zayı çıxır

Bugün kimi dindirsən, çox bilikli, savadlı, diribaş, cəsarətli şəxs olmasından söhbət açacaq. Deyəcək ki, yeri gəlsə əlinə külüng alıb Fərhad kimi dağları yarar, qayaları çapar. Həm də söyləyəcək ki, ”kim mənim səmimiyyətimə inanmırsa, istənilən TV-də onunla debata çıxmağa, müzakirələr qurmağa, hətta güləşməyə hazıram”. Bu yerdə xoruzun quyruğu görünür. Məlum olur ki, məxluqun heç bir istedadı, talantı yoxdur, sadəcə, məqsəd və məramı hay-küyü vasitəsilə TV-lərə çıxmaqdır. O TV-lərə ki, lağ-lağı, dedi-qodu şəbəkəsinə çevrilib. Kim kimi söyüb təhqir etmək, hörmətdən-izzətdən salmaq istəyirsə TV-lərdə rol alıb, istəyini həyata keçirir. Qeyri-peşəkar aparıcı məxluqlar ailə dəyərlərindən, əxlaq norma və prinsiplərindən xəbərsiz olan zəif iradəli insanları verilişlərə çıxarıb, onları kukla kimi oynadır, ictimaiyyətin gözü önündə təhqir edib, gözdən salmağa çalışırlar. Bir aparıcı cəmiyyətin heysiyyətinə toxunan fikir söyləyir, deyir ki, ”atasız qızı oğluma almaram”. Adama deyən lazımdır ki, sən özün kimsən axı? Azərbaycandan kənara çıxdığın zaman özünü normal aparmısanmı? Başqa bir kişi aparıcı qadın müğənniyə ”a...z gəlib, səni boğaram”, - deyə qadınlarsayağı əllərini yellədir. Birisi var, işi -gücü olan bir fağırı 4-5 aydır ki, gətirib verilişində ”mənim hekayəm, mənim hekayəm” deyib oynadır. Qoymur biçarə gedib bir parça çörəyini qazansın. Bu cür biabırçılıqlar fonunda diqqətçəkən məqamlardan biri də ondan ibarətdir ki, TV-lər siyasi şərhçi, politoloq və bu kimi ”istedadlar” da üzə çıxarıb, onları cəmiyyətə təqdim etməyə çalışırlar. Bu baxımdan, son vaxtlar ”istedadlı” məxluqların sayı çoxalıb. ”İstedadlı” məxluqlardan kimi dindirsən deyir ki, ”mən politoloqam və növbəti parlament seçkilərində namizədliyimi irəli sürüb, deputat olacam”. Elələri də var ki, mətbuata yenicə çıxıb, amma ”həmkarları”nı bəyənmir. Ancaq bu ”say-seçmə politoloqlar” anlamırlar ki, ictimaiyyətin siyasi biliklərinin və intellektual bacarıqlarının artırılmasında politoloq müstəsna imkanlara malikdirlər. Politologiya siyasətin elmi tədqiqidir. Bir növ tədqiqatçıdır. Politoloqların proqnozları, təhlilləri cəmiyyətlərin inkişafına töhfə verməklə yanaşı, insanların maarifləndirilməsinə xidmət etməlidir. Analitiklərin gəldikləri qənaətə görə, siyasi elmdə bir neçə nəzəriyyə mövcuddur ki, onlardan da ən aktualı təsviri səviyyə, izahlı səviyyə, proqnozlaşdırıcı səviyyə və nəzəri səviyyədir. Özlərini cəmiyyətə politoloq kimi təqdim etməyə çalışanlar bu prinsipləri və qaydaları mənimsəmədən hadisələrə və proseslərin gedişi barədə təhlillərini və proqnozlarını irəli sürmələri yanlışdır.

Təəssüf ki, politoloq qismində özlərini təqdim edənlər ağına-bozuna baxmadan hadisələrin gedişi haqqında cəfəng, heç bir informasiya yükü olmayan fikirlər səsləndirirlər. Bəzən şərhlər verərkən elə ifadələr seçirlər ki, adamın ayağından yer qaçır. Nədənsə TV-lərdə dostu, tanışı çalışır, saytlara çıxış imkanları var. Belə demək mümkünsə politogiya sahəsində at izi, it izinə qarışıb, hərə ağlına və ağzına gələni danışır. Dediklərinin fərqinə varan, məsuliyyətini anlayan da yoxdur. Dərk etmirlər ki, açıqladıqları yanlış fikir cəmiyyətdə çaşqınlıq yarada bilər. O gün internet TV-lərin birinə açıqlama verən əndərəbadi bir politoloq deyir ki, regionda yeni müharibənin baş verəcəyi gözlənilir. Başqa birisi isə iddia edir ki, Tramp Rusiyanın agentidir və ifşa olunacağından qorxduğu üçün Ukrayna prezidenti Zelenskini sülh danışıqlarına getməyə məcbur edir. Deyən və başa salan lazımdır ki, haradan bilirsən? Bəlkə Mişel Nostradamısın ruhu bədəninə girib öncəgörən olmusan? Hər şeyin sərhədi olduğu kimi, xəbərin verilməsində və proqnozların irəli sürülməsində də sərhəd olmalıdır. Əks təqdirdə cəmiyyətdə ziddiyyətli fikir formalaşar ki, bundan da məkrli xarici qüvvələr əleyhimizə istifadə edə bilərlər.

Avropa liderlərinin
UKRAYNADAN İSTİFADƏ NİYYƏTLƏRİ

Amerika Birləşmiş Ştatlarının Demokratlar Partiyası Rusiya Federasiyası ilə münasibətləri bir çox istiqamətdə korlayıb. Respublikaçılar Partiyası indi artıq çox şeyi "bərpa etmək" məcburiyyətindədir. Münasibətlərin normallaşdırılması istiqamətində ABŞ prezidenti Donald Tramp tərəfindən atılan addımlar da bu baxımdan heç də təsadüfi və səbəbsiz deyil.

Avropalılarda olan "qıcıq" ilk baxışdan qısqanclıq kimi görünsə də, məsələ göründüyü kimi bəsit deyil, bir qədər düşündürücüdür

Diqqətə çatdıraq ki, Rusiya prezidenti Vladimir Putin həmkarı Donald Trampla telefon danışığı zamanı Qitə və Milli Xokkey Liqalarının ən yaxşı komandaları arasında yarışların təşkilini təklif edib. Belə məlum olub ki, bu təklif Trampın xoşuna gəlib. Bununla bağlı Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın məhz Aİ nümayəndələrinin "top Rusiya tərəfindədir" açıqlamalarına münasibət bildirməsi heç də təsadüfi sayıla bilməz. "Avropa İttifaqı davamlı olaraq, "top Moskvanın tərəfindədir" deyirdi. Məlum oldu ki, bu, xokkey şaybası imiş və o artıq oyundadır", deyə Zaxarova bildirib. Belə bir ehyam diqqəti cəlb edir və görünən odur ki, ruslar məhz avropalıların hansısa niyyətlərindən də xəbərdardırlar və yenə də hansısa "işlər çevirmək" üçün cəhdlər edildiyinə işarə vurulur.

Belə məlum olur ki, Rusiya lideri Putin və ABŞ lideri Tramp totalitar "liberalların" ümidlərinə zidd olan razılığa gəlirlər. Bununla belə onların rəhbərləri hər şeyi "olduğu kimi" saxlamağa çalışırlar. Nəyə nail olmaq istədikləri də göz önündədir. ABŞ və Rusiya liderlərinin münasibətləri yaxşılaşdırmaq niyyətlərinə avropalılarda olan "qıcıq" ilk baxışdan qısqanclıq kimi görünsə də, məsələ bir qədər də düşündürücüdür və hər halda, göründüyü kimi bəsit, o qədər də səthi deyil. İstənilən halda, Avropa liderlərinin yenə də mövcud vəziyyətlə "barışmaz" mövqeyi ortadadır. Heç şübhəsiz ki, bunun səbəbləri var və hansısa niyyətin olduğu da təkzib edilə bilməz.

Ukraynadan istifadə etmək niyyətinin olduğu yenə də özünü büruzə verir

Avropa Komissiyasının rəhbəri Avropa İttifaqının Ukraynaya silahlanma proqramlarını və paylayıcı materiallarını kəskin şəkildə genişləndirəcəyini vəd edir. Özü də davamlı şəkildə belə vədlərlə çıxış edir. Bəs axı prezidentlər arasında söhbətdə "münaqişənin genişlənməsinin, eskalasiya deyilənin qarşısının alınmasının və onun siyasi-diplomatik vasitələrlə həllinə çalışmağın əsas şərtinin məhz xarici hərbi yardımın və Kiyevə kəşfiyyat məlumatlarının verilməsinin tamamilə dayandırılması olduğu vurğulanıb". Hər halda, təzadlı məqamların olduğu təkzib edilə bilməz. Əgər Avropa Komissiyası Avropa İttifaqı və Ukraynanın hərbi potensialının kəmiyyət və keyfiyyətcə genişləndirilməsi planı olan sənədlər paketini təqdim edibsə, deməli, hər şey ortadadır. Sözsüz ki, hərbi istehsal üçün vahid bazarın da nəzərdə tutulduğu özünü göstərir. Belə məlum olur ki, "istiqamətlər" artıq müəyyən edilib.

Hadisələrin gedişi onu deməyə əsas verir ki, Avropa İttifaqının məqsədi Ukraynanı dəstəkləməkdən çox, həmin ölkədən məhz Rusiya Federasiyasına və Ukrayna Dövlət Təhlükəsizlik Xidmətinin yeni rəhbərliyinə qarşı istifadə etməkdən ibarətdir. Əgər həqiqətən də Ukraynanın dəstəklənməsi "yük" hesab olunursa, o zaman nəyə görə belə bir dəstək hələ də ön planda durur? Sözsüz ki, bu sual çoxlarını düşündürür və bununla bağlı siyasətçilərin də, dövlət rəsmilərinin də fikirləri maraq doğurur. Məsələn, Macarıstanın baş naziri Orbanın sözlərinə görə, Avropa İttifaqı ölkələrinin əksəriyyətinin liderləri artıq başa düşürlər ki, Ukrayna hərbi qarşıdurmada uduzub və həmin ölkənin Avropa İttifaqına daxil olması Aİ-nin iqtisadiyyatını çökdürəcək. Deməli, belə çıxır ki, Avropa belə bir "çöküşü" bilə-bilə hələ də özünəməxsus şəkildə Ukrayna ilə bağlı planlar üzərində baş sındırır və nəyə isə ümid edir. Ən azından, Ukraynadan istifadə etmək niyyətinin olduğu yenə də özünü biruzə verir.

İstifadə niyyətinin olması qənaətinə gəlinməsi məhz alət olmamaq üçün kifayət edər və bunu dərk edənlər öz hesablarını götürmüş olarlar...

Dünya ölkələri ilə bağlı bir çox məqamları bu anda xatırlatmaq tamamilə yerinə düşür. Onsuz da həmin məqamlar heç də diqqətdən yayınan deyil. Məsələn, diqqətə çatdıraq və xatırladaq ki, Avropa İttifaqının bürokratiyasına tabe olmamaq üçün Britaniya Avropa İttifaqını tərk etdi. Yəqin ki, nəinki amerikalılar, ümumiyyətlə, bütün dünya ictimaiyyəti də bu faktı nəzərdən qaçırmadı. Amma bununla belə, onu da diqqətə çatdıraq ki, Avropa İttifaqı ilə əlaqəli hər şeyə Britaniya güclü təsir göstərir. Bu təsiri heç avropalılar özləri də görməyə, hiss etməyə, duymaya bilməzlər. Duyurlar. Özü də çox yaxşı duyurlar və bu vaxta qədər olan təsirləri yaxşı başa da düşürlər. "Ayının yüz oyunu bir armuda görədir", zərb məsələndə olduğu kimi, bu qədər "oyunlar" da əlbəttə ki, nəyə isə görədir. İndi Avropa "başbilənləri" sadəcə olaraq, Ukraynadan istifadə etmək niyyətlərini heç gizlədə də bilmirlər. Çünki hər şey ortadadır. "Cidanı çuvalda gizlətmək olmaz" və elə gizli niyyətlər də bu baxımdan gizli qala bilməz.

Niyyətlərin nədən ibarət olduğunu da daha açıq şəkildə bildirənlər elə Avropa İttifaqını tərk edənlərdirlər. Daha dəqiq desək, Britaniya rəsmiləri belə bir çox qaranlıq məqamlar barədə açıq şəkildə fikirlərini bildirirlər və çəkinmədən qeyd edirlər ki, avropalılar istənilən halda, xüsusən də atəşkəs olacağı təqdirdə yenə də "burunlarını soxmaq" fikrində olacaqlar. Məsələn, Böyük Britaniyanın baş naziri Starmer deyib ki, Ukraynada atəşkəs əldə olunarsa, Avropadan olan NATO qoşunları sülhməramlılar kimi tezliklə ölkəyə daxil olmalıdırılar və olacaqlar da. Xüsusən də belə bir "proqnozun" ardınca "xəbərdarlıq" da edilir. "Biz artıq bir neçə dəfə açıq şəkildə xəbərdarlıq etmişik ki, NATO qüvvələri Rusiyanın cənubuna daxil olmaq üçün hansı variantdan istifadə edirlərsə etsinlər, silahlarımız onları məhv edəcək", deyə bildirilməsi artıq yalnız xəbərdarlıq deyil, həm də ortada niyyətlərin olmasını təsdiq edən məqamdır. Niyyət də, məqsəd də, məram da elə istifadə etməkdən ibarətdir. Amma bunun başa düşülməsi hər halda, alət olmamaq üçün ukraynalılara da kifayət edər və bunu dərk edənlər, xüsusən, amerikalılar da, ruslar da öz hesablarını götürmüş olarlar...

İnam Hacıyev

”Dünyanın fabriki”nin qlobal liderlik yolu və Azərbaycan üçün vacib ölkə

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti çərçivəsində hazırlanıb

Son illərdə Çinin dünyanın 1 nömrəli iqtisadiyyatına çevrilməsi qlobal iqtisadi güc mərkəzini dəyişdirdi. ABŞ prezidenti Donald Trampın ölkəsinin əsas rəqibi və düşməni olaraq Çini görməsi və onun dünya iqtisadiyyatındakı liderliyinə mane olmaq üçün çalışması qlobal bazarda müəyyən təlatümlərə səbəb olub.

Çinə qarşı müəyyən sanksiyalar tətbiq edən ABŞ-a cavab olaraq Pekin də bəzi sahələrdə əks addımlar atır. Amma Çin hakimiyyəti ABŞ-la münasibətlərdə sabitliyə nail olmağı planlaşdırır və yeni ticarət müharibəsi istəmir.

2015-ci ildə ABŞ-ın o zamankı demokratlardan olan prezidenti Barak Obama Çinə maliyyə sanksiyaları tətbiq etdi. Donald Tramp hakimiyyətə gəldikdən sonra məhdudiyyətlər siyahısını genişləndirdi. Sonrakı prezident Co Bayden də kənarda qalmadı və bir sıra məhdudiyyətlər tətbiq etdi, bunlardan ən məşhuru Çin elektrik avtomobillərinə tariflərin artırılmasıdır. ÜTT-nin bir sıra məhdudiyyətləri təşkilatın qaydalara uyğun gəlməməsi kimi tanımasına, digərləri isə açıq şəkildə qərarı gecikdirməsinə baxmayaraq, bu niyə baş verir?

Növbəti vasitə Çinə qarşı ticarət blokadasının yaradılmasıdır. Bu Çin üçün həyati əhəmiyyətli təhlükədir. Çin dünyada ən çox məhsul ixrac edən ölkədir. Dünya ticarətinin 20%-i Çinin payına düşür. Yalnız məhsul ticarətini götürsək, bu faiz daha da böyük olar. Çini haqlı olaraq ”dünyanın fabriki” adlandırırlar.

Çin sürətlə inkişaf edərək, ABŞ-ın dünya hegemonluğuna ən real təhlükəyə çevrilib. 5 il də belə davam edərsə, ABŞ hegemonluğunu tam itirəcək. Buna görə də ABŞ təcili Çinin ”dərsini” verməlidir.

ABŞ özünə rəqib bildiyi Çinin iqtisadi cəhətdən qüvvətlənməsini heç zaman həzm edə bilməyib və buna mane olmaq üçün müəyyən addımlar atıb. Trampın çağırışının məhz bu məqsədlə gündəmə gəldiyi deyilir.

Biz ”Bretton Woods” müqavilələrinin mahiyyətini dərk etməliyik. Hər bir ölkə qazandığı kapitalı Amerika-Britaniya kapitalının nəzarətində olan transmilli şirkətlərlə bölüşməlidir. Nə qədər ki, ölkənin gəlirləri onlarla bölünəcək, Səudiyyə Ərəbistanında olduğu kimi hər şey yaxşı olacaq. Çinin isə öz gəlirlərindən kimisə xərac vermək fikri yoxdur və Çin şirkətlərinin qazandığı pulları öz ehtiyacları üçün istifadə edir.

ABŞ və Aİ ölkələri Çindən gətirilən pambığın istifadəsini qadağan edib. Çini bu bazardan çıxarmaq istəyirlər. Dünyanın ən böyük 5 pambıq istehsalçısı Çin, Hindistan, ABŞ, Braziliya və Pakistandır. Onlar dünya pambığının təxminən 75%-ni istehsal edirlər. Bununla belə, pambıq bazarına Amerika-Britaniya mənşəli transmilli şirkətlər nəzarət edir. Məsələ burasındadır ki, pambıq təkcə geyim istehsalı üçün deyil, həm də barıt (patronlardan tutmuş raket və yaxın mənzilli raketlər üçün), kağız pul çapı üçün xammaldır. Çinin bu bazardan kənarda qalması pambığın qiymətinin artmasına səbəb olacaq. Söhbət onlarla, yüz milyonlarla ABŞ dollarından gedir. Onlardan hansı belə bir ”tort payından” imtina etməyə hazırdır? Sual ritorikdir. Lakin bu, Donald Tramp və komandasının Çinlə bağlı gələcək fəaliyyətlərinin əsas motividir - Çin kapitalından pay almaq.

Bütün bunlara baxmayaraq, Çin iqtisadi artımına davam edir, dünya ticarət sistemində ən böyük payını saxlayır. Bu gün Çin dünyada ən rəqabətqabiliyyətli ölkələrdən biridi. Son illərdə yuan iri investorları ən çox cəlbedən valyutaya çevrilib. Proqnozlara görə, 2030-cu ildə dünyadakı ümumi valyuta ehtiyatlarının 20 faizi yuanda saxlanacaq. Təbii olaraq, bu valyutaya tələbat artdıqca o bahalaşacaq.

Çin iqtisadiyyatında baş verən proseslər dünyaya birbaşa təsir göstərir. Pekin məqsədli şəkildə öz valyutasını ucuzlaşdırır ki, bu da dollara qarşı yuanın üstünlüyünü və Çin mallarının dünya bazarında rəqabət qabiliyyətini artırır. ABŞ-la iqtisadi münaqişənin kökündə də bu dayanır.

Çin son dövrlərdə bir çox Afrika və Asiya ölkələrinə külli miqdarda investisiya qoyub. Bu ölkənin inkişafını dayandırmaq Amerikaya müyəssər olmadı. Trampın bəyanatları ucuz populizmdən başqa bir şey deyil. Amerika tərəfindən idarə olunan beynəlxalq təşkilatların yeganə məqsədi Amerika və Avropanın maraqlarını, mənafelərini təmin etməkdir.

Lakin artıq köhnə dünya bitir, yeni dünya sistemi yaranır. Dünyanı siyasi, hərbi yolla ələ keçirmək mümkün deyil, amma iqtisadi yolla mümükndür. Çin də bu yolu seçib və bu yolda qələbə də qazanıb. Azərbaycanla Çinin iqtisadi əməkdaşlığı arzuolunan səviyyədə deyil, düzdür son illərdə Çindən idxal artır, lakin məsələ təkcə ticarətdə deyil, Çinlə bütün sahələrdə əməkdaşlığı artırmaq vacibdir. Neft-qaz ixracını kənara qoysaq, bizim ən böyük xarici ticarət tərəfdaşlarımız Rusiya, Çin və Türkiyədir. Bizdə Çindən müxtəlif ucuz məhsullar-tekstil məmulatları, elektrotexnika, oyuncaqlar, xirdavat məmulatları, avtomobillər və s gətirilir. Bu məhsullar digər ölkələrdən idxal edilən məhsullardan xeyli ucuzdur və bazarda sürətlə mövqeləri ələ keçirir.

Bu səbəbdən Çin məhsulları nəinki xarici məhsullarla, hətta ölkə daxilində istehsal olunan məhsullara qarşı da rəqabətədavamlıdır. Bizdə satılanlar əksərən çox aşağı keyfiyyətli məhsullardır. Çünki bizim idxalçılar daha çox qazanmaq üçün ordan son dərəcə ucuz və keyfiyyətsiz məhsul gətirirlər.

Qərb ölkələrində satılan Çin məhsulları ilə Azərbaycanda satılan məhsulların keyfiyyəti arasında xeyli fərq var. Çin məhsulları bütün dünyanı, o cümlədən ABŞ və Avropanı bürüyüb. Əksər Çin məhsulları dünya və Avropa standartlarına cavab verir. Avropada keyfiyyətə qarşı sərt tələblər var, əgər Çin məhsulları ketfiyyətsiz olsaydı, o bazarda çəkisi sürətlə artmazdı.

Yaxın illərdə Çinin Azərbaycanla iqtisadi və ticari əməkdaşlığının perspektivinə gəldikdə isə hesab edirik ki, getdikcə Çinlə əməkdaşlıq və ticarət artacaq. Sadəcə, bizdə keyfiyyət standartları tətbiq olunmalıdır ki, ölkəyə keyfiyyətsiz məhsullar yol tapmasın. Bununla yanaşı, əhalinin həyat şəraiti yaxşılaşmalıdır ki, bizim bazar ucuz və keyfiyyətsiz məhsullara möhtac olmasın. Çindən yaxşı texnologiyalar gətirib istehsal sahələri yaratmaq olar. Bir çox sahələrdə Çinin təcrübəsindən yararlanmaq olar.

Çin dünyanın ən nəhəng dövlətlərindən biri olduğundan və getdikcə dünya iqtisadiyyatında çəkisi artdığından Azərbaycan bu dövlətlə əməkdaşlığını artırmalı, iqtisadi və digər sahələrdə münasibətləri daha da gücləndirməlidir. Bu həm ixracın və idxalın regional diversifikasiyana gətirib çıxaracaq, həm də ölkəmizi daha ucuz keyfiyyətli texnologiya və məshulla təmin etməyə xidmət edəcək.

Beynəlxalq iqtisadi tədqiqat mərkəzlərin proqnozlarına görə, Çin iqtisadiyyatı sürətlə böyüyəcək. Çinin və Azərbaycanın daha çox potensialı var və bu imkanlardan isitfadə edilsə hər iki tərəf xeyir görər. Çin keyfiyyətli və ucuz məhsullar ixrac edir. Nəticədə dünya bazarında qiymətlərin ucuzlaşmasına təsir göstərir.

Biz Çindən müxtəlif istehsal avadanlıqları, müasir texnologiyalar gətirib zavod və fabriklər açа bilərik. Birgə müəssisələr yarada bilərik. Belə nümunələr ölkəmizdə var və uğurludur. Çin çirkətləri Azərbaycanda böyük layihələrin icarçısı kimi çıxış edir, bunların bir çoxu texnoloji layihələrdir. Çinlə bütün sahələrdə əməkdaşlığı gücləndirmək ölkəmizin mənafelərinə xidmət edəcək.

Çin dünyada ABŞ və Rusiya ilə birgə 3 superdövlətdən biridir və BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvüdür. Bu dövlətlə yaxın iqtisadi tərəfdaşlıq siyasi münasibətləri də yaxınlaşdırır. Azərbaycan Çin iqtisadi inkişaf modelini öyrənməli və tətbiq etməlidir.

Elçin Bayramlı

SON SƏHİFƏ
SƏS
3 aprel
2025-ci il

Uşaq kitablarına maraq niyə azalıb?



"Azərbaycan uşaq ədəbiyyatı sahəsində və uşaqların oxuma, mütaliə vərdişləri sahəsində təəssüf ki, bir çox ölkələrdən geridə qalır. Təbii ki, elm və texnikanın inkişafı, internetin mövcudluğu, uşaqların ekran bağlılığı bu problemi biraz daha da dərinləşdirir. Bunun həlli yolu həm müəllimlərdən, həm də valideynlərdən, eyni zamanda nəşriyyatlardan asılıdır. Təbii ki, biz müasir dövrün uşağına ekrana, telefona yaxud internetə baxmağı qadağa qoya bilmərik. Çünki bu fəaliyyətləri kitab oxumaq üçün qadağa etmiş olsaq, bu uşaqlarda kitaba qarşı yenədə neqativ duyğu yaradacaq. Əksinə uşaqların kitaba yönəlməsi və mütaliə vərdişinin yaranması, həmçinin kitablarla maraqlanması üçün onların tələbatlarına uyğun kitabları təklif etməyi öyrənməliyik". Bu sözləri SİA-ya açıqlamasında "Ağıllı bala" uşaq nəşriyyatının direktoru, uşaq yazıçısı Fatimə Alxaz deyib.

Əslində biz bəzən deyirik ki, uşaqların kitaba marağı yetəri qədər deyil: "Amma bu əslində demək olar ki, belə deyil. Çünki keçirdiyimiz uşaq kitab sərgilərində görürük ki, uşaqlar çox sayda festivallara, həmçinin kitabları sərgilərinə gəlirlər. Məhz bu yerlərdə onları maraqlandıran kitabları əldə edəndə oxumaq üçün həvəsli olurlar. Mən düşünürəm ki, uşaqların ümumiyyətlə kitaba marağı az deyil. Onları maraqlandıran kitablar azdır. Uşaq ədəbiyyatı sahəsində müasir dövrün uşaqlarını maraqlandıran kitab çeşidi azdır. Biz uşaq yazıçıları və naşirlər olaraq hər sahədə maraqlı kitablar yazmalıyıq ki, hər bir uşaq öz maraq dairəsinə uyğun,onu maraqlandıran, həyəcanlandıra bilən kitabları əldə edə bilsin. Eyni zamanda məktəb kitabxanaları-nın zənginləşməsidə çox önəmlidir. Çünki uşaqlar daha çox saatda məktəbdə olurlar. Bu saatlarda kitabxanaya gedib, kitab əldə etmək daha asan olur".

Uşaq yazıçısı qeyd edir ki, sevindirici haldır ki, müəllimlər, xüsusilə ibtidai sinif müəllimləri uşaqlarla kitab klubları yaratmağa başlayırlar və bu da uşaqları mütaliə üçün həvəsləndirir: "Bu çox önəmli bir məsələdir. Çox yaxşı olar ki, kütləvi şəkildə məktəblərdə oxu klubları yaradılsın və uşaqlar sinif kitabxanalarından alınmış kitablarla mütaliə etsinlər. Zaman keçdikcə öz kitablarını alıb, fərdi kitabxanalarını zənginləşdirsinlər. Burada valideynlərə də çox iş düşür. Uşaqlar hər dəfə kitablı tədbirlərdə olsunlar. Artıq getdikcə bu hərəkət uşaqlarda vərdiş, ənənə halına keçsin".

Xeyrənsə Piriyeva

DİQQƏT: Narahatedici düşüncələr bunlardan qaynaqlanır!

PSİXOLOQ İZAH ETDİ

"İstəkdən kənar insanın ağlına gələn, narahatedici düşüncələr obsessiv kompulsiv pozuntu hesab edilir". Bu sözləri SİA-ya açıqlamasında uşaq, yeniyetmə və yetkin psixoloqu Nigar Ağabağırova deyib. Psixoloqun sözlərinə görə, obsessiv, yəni təkrarlanan narahatedici düşüncələr gərəksiz olsa da, həmin şəxs çox zaman bunun məntiqsiz oldugunun fərqində olur: "Yəni bu vəziyyət keçmiş adı ilə desək, nevrozdur. Psixoz isə odur ki, insan reallıqla qeyri-reallığı ayırd edə bilmir. Psixozda müxtəlif növ hallüsinasiyalar, yəni qarabasmalar da görülə bilir. Obsessiyalar təşviş pozuntusu sinfinə aiddir. Hansısa təhlükəli vəziyyət zamanı bizdə olan həyəcan təşviş normaldır. Yəni var olan təhlükəyə həyəcanlı reaksiyamız təbii haldır. Lakin heç bir təhlükə olmadan, səbəbsiz olaraq vurma, kəsmə, zərər vermə düşüncələri ağlımıza gəlirsə, bu təşviş bizi narahat edərək, həyat keyfiyyətimizi aşağı sala bilər.

Bu narahatedici düşüncələr nədən qaynaqlanır?

Çox zaman genetik olur. Ailədə təşviş pozuntularının hər hansısa birindən əziyyət çəkən kimsə varsa, digər ailə üzvlərində də görülmə ehtimalı olur. Eyni zamanda yüksək dərin düşünən, hər şeyi kontrola almaq istəyən mükəmməliyyətçi insanlarda daha çox görülür. Müalicəsi mümkündür. Koqnitiv bihevioral terapiya və lazım gəldikdə antidepressantlarla müalicə etmək mümkündür".

Söylü Ağazadə

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

Ulduz futbolçu: "Real"da xoşbəxtəm

"Real"ın futbolçusu Cud Bellinqem klubdakı gələcəyi haqda danışıb. QOL.az xəbər verir ki, 22 yaşlı yarımmüdafiəçi Madrid təmsilçisində xoşbəxt olduğunu, hələ uzun illər bu komandada oynamaq istədiyini deyib: "Real" mənim üçün ən mükəmməl klubdur. Madriddə xoşbəxtəm. Qarşıdakı 10-15 il ərzində bu forma ilə oynayacağımı düşünürəm". Qeyd edək ki, Bellinqem 2023-cü ilin yayında Dortmund "Borussiya"sından "Real"a keçib. Onunla bir neçə nəhəng klubun yaxından maraqlandığına dair xəbərlər də yayılıb.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.**
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700